Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 103 (8126) BAZAR, 12 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətləri heç vaxt unudulmayacaq





**Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.**
**Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Heydər Əliyev Fondunun əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.**
**Dövlət başçısı mərasimdə nitq söylədi.**

## Ulu öndərin adını daşıyan fond dahi rəhbərin siyasi irsini təbliğ etmək üçün böyük işlər görür

## Prezident İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha Ulu Öndərin əziz xatirəsinə hörmət və ehtiramını bildirir.

Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə - 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə edilmiş nəticələri nəzərə alaraq, 1982-ci ildə o, Moskvaya dəvət olundu, yüksək vəzifəyə - Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə də uğurla çalışırdı, o cümlədən Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar o vaxt da ölkəmizin inkişafına xidmət göstərirdi. Yəni o, Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. 1987-ci ildə vəzifədən gedəndən sonra xalqımız, respublikamız üçün problemlər başladı. İki həftə də keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, bu məsələ bundan əvvəlki dövrdə qaldırılsın. Halbuki belə cəhdlər, belə meyillər var idi. Ancaq Heydər Əliyev amili buna imkan vermirdi.

Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başladı. Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Pensiyada olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Görürdü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır. Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili demək olar tam dəqiq və düzgün idi.

Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edərək sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev pensiyaçı idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət, əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır.



O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı, əlbəttə ki, böyük cəsarət tələb edirdi, bir daha onu göstərirdi ki, o, hər zaman Azərbaycan xalqı ilə bir yerdədir. Ondan sonra bu qanlı cinayətə etiraz olaraq uzun illər ərzində üzvü olduğu Kommunist Partiyasının sıralarını tərk etdi. Bu da böyük cəsarət tələb edirdi. Təbii ki, ondan sonra ona və onun ailə üzvlərinə qarşı təzyiqlər, təqiblər başlamışdır. Bu təzyiqlərin müxtəlif formaları var idi. Bir sözlə, ona təzyiq etmək və cəzalandırmaq üçün praktiki addımlar atılırdı. Hətta bizdə məlumat var idi ki, onun həbsi ilə bağlı məsələ müzakirə edilirdi.

Bakıya gəldi, ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkirli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi. O vaxt onun rəhbərliyi ilə Naxçıvanda səfərbərlik işləri aparılmışdır. Sərhəddə şiddətli döyüşlər gedirdi və Naxçıvan öz torpağını qoruya bildi.

Naxçıvanda digər yaddaqalan hadisə Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin - ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında qəbul edilsin. Yəni bu, tarixdir. Bu tarix bir daha göstərir ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı.

Azərbaycanda ovaxtkı vəziyyət bizim yadımızdadır. O vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi, gənc, müstəqil dövləti uçuruma aparırdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi, hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Azərbaycan xalqı bu xəyanətkar hakimiyyətə bir il dözə bildi. Bir ildən sonra onlar tarixin arxivinə göndərildi. O vaxt torpaqlarımız işğal altına düşdü. Şuşa, Laçın, Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında görürdü və müraciət edərək onu dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün böyük hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi. Beləliklə, müstəqil Azərbaycanın müstəqil həyatı başladı. Çünki tam qətiyyətlə deyə bilərəm ki, 1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı.

*Ardı 2-ci səh.*

## Qayğıya ehtiyacı olanların ilk “DOST”u

**Ölkəmizdə əhalinin sosial müdafiəsinin təşkili, həmçinin vətəndaşların bu sahədə olan hüquqlarının qorunması bu gün də dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin 2018-ci il avqustun 9-da “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi”nin (DOST Agentliyi) yaradılması ilə bağlı imzaladığı fərman da bu məqsədə xidmət edir.**



Məqsəd əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınması və vətəndaş məmnunluğunun artırılmasıdır.

*Ardı 4-cü səh.*

## Yüksək sosial rifah naminə

### İlham Əliyevin qətiyyətli qərarları, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış məntiqli siyasətinin təzahürüdür

**Son 4 ayda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən sosial islahatlar artıq öz müsbət nəticələrini göstərməkdədir. Müavinət və təqaüdləri artırılan bir çox kateqoriyalara aid insanlar aprel ayından yeni hesablamalar, təqaüd və müavinətlərini artımlarla almağa başlayıblar.**

Əlbəttə ki, bütün bu proseslər Prezident İlham Əliyevin böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar əsasında reallaşır. Dövlət başçısının ilin əvvəlində təqdim etdiyi böyükhəcmli sosial paket çərçivəsində elə bir kateqoriya olmadı ki, maaşlar, təqaüdlər. müavinətlər artırılmasın.

Prezidentin söylədiyi kimi, hökumət bu prosesə hazırlığı keçən ildən başlamışdı. Aprel ayında keçirilən prezident seçkilərindən sonra andiçmə mərasimində İlham Əliyev qarşıda görüləcək işlərlə bağlı göstərişlər verdi və yeni yanaşmanın konturlarını müəyyən etdi.

*Ardı 5-ci səh.*



## Zaman Azərbaycanın xeyrinə işləyir

### Proseslər ölkəmizin ərazi bütövlüyünün bərpasına doğru gedir

*Bax: səh. 5*

## Rusiya erməni faşizmini ifşa etdi

### Rəsmi Moskva Yerevanı rasizm, ksenofobiya və terrora meydan verməkdə günahlandırdı

**Bu gün dünya miqyasında ən böyük təhdidlərdən biri də neofaşizmin yenidən təşəkkül tapmasıdır. Hazırda neofaşist ideyaları bəşəriyyətə qarşı yönəlmiş qanlı siyasət kimi qiymətləndirilir və onunla qətiyyətli mübarizə mühüm şərtə çevrilir.**

Çünki beynəlxalq ictimaiyyət belə düşmənçilik yaradan təbliğatın yenidən dünyanı böyük fəlakətlərə sürükləyə biləcəyini yaxşı dərk edir. Lakin bəşəriyyətin daha böyük inkişafa doğru irəlilədiyi bir vaxtda elə ölkələr də tapılır ki, neofaşizmi dövlət siyasəti səviyyəsinə yüksəldir.

Bu xüsusda neofaşizm ideyalarını dirçəltməyə və yaymağa can atan Ermənistan indi daha çox seçilməkdədir. Neofaşizm bu gün Ermənistanda yeni intibah mərhələsini yaşamaqda, çoxsaylı tərəfdarlar toplamaqdadır. Bunu Rusiya Xarici İşlər Nazirliyinin son hesabatından da aydın görmək olar.

*Ardı 8-ci səh.*

# Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər

## Ulu öndərin adını daşıyan fond dahi rəhbərin

## Prezident İlham Əliyevin nitqi



*Əvvəli 1-ci səh.*

Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il dönüş nöqtəsi oldu. Məhz Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdən, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı. Çünki o vaxt Azərbaycanda siyasi sistem hələ formalaşmamışdı. Siyasi sistemin formalaşmasında 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının rolunu qeyd etməliyəm. Onu da bildirməliyəm ki, özlərini demokrat adlandıran şəxslər o vaxt imkan vermədilər ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Bir qrup vətənpərvər ziyalı Naxçıvana gedərək Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirdilər.

Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. O vaxt Azərbaycanda mətbuat azadlığı yox idi. Senzuranın ləğvi də Ulu Öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi.

Ordu quruculuğu prosesi başlamışdır. Çünki o vaxta qədər nizami ordu yox idi. İqtisadi sahədə çox ciddi islahatlar aparılmışdır, o cümlədən kənd təsərrüfatı sahəsində. O islahatlar ki, bu gün bizim apardığımız islahatlar üçün gözəl zəmin yaradır. Sənaye potensialının inkişafı ilə bağlı önəmli addımlar atılmışdır. Sərmayə qoyuluşu Azərbaycanda artıq bir amil kimi mövcud oldu. "Əsrin kontraktı"nın imzalanması, əlbəttə ki, tarixi hadisədir. 1994-cü ilin sentyabrında bu kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin etmişdir. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir - insanların rifah halının yaxşılaşması, ordu potensialının gücləndirilməsi, məcburi köçkünlərin problemlərinin həlli, infrastruktur layihələrinin icrası. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, bu işləri nəyin hesabına görə bilərdik? Bu maliyyə imkanlarını bizə "Əsrin kontraktı" yaratdı. Mən o dövrü yaxşı xatırlayıram. O vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi digər yoldaşlarla bu məsələ ilə ciddi məşğul idim. Bu kontrakt Azərbaycan üçün ən məqbul şərtlərlə imzalanmışdır və bu, bugünkü reallıqda özünü göstərir. Bu yaxınlarda kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Azərbaycan bu kontraktın faydasını görəcəkdir.

Yəni bu, tarixi hadisə idi, Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətlərindən biridir. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt bölgədə geosiyasi vəziyyət çox mürəkkəb idi və bu kontraktın imzalanması o qədər də asan məsələ deyildi. Kontraktın imzalanmasından sonra baş vermiş hadisələr onu göstərdi. Ancaq Heydər Əliyevin dəmir iradəsi, qətiyyəti və gələcəyə yönəlmiş addımları bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə müəyyən edir.

2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasətini davam etdirəcəyəm və xalq Heydər Əliyev siyasətinə səs verdi. O vaxtdan bu günə qədər Azərbaycan böyük və uğurlu yol keçdi, müstəqillik daha da möhkəmləndi. Azərbaycanda sabitlik təmin olunub, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Yəni bu da tarixi nailiyyətimizdir. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqeyimizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Münaqişə ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqda yaşamış və yaratmışdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında öz həllini tapmalıdır. Bu, yeganə yoldur və biz bu yolla gedirik və gedəcəyik.

Eyni zamanda, ordunun gücünü artırırıq. Bu gün Azərbaycan beynəlxalq reytinqlərə əsasən dünya miqyasında ordu potensialına görə 50 ölkə arasındadır. Bundan sonra da ordumuzun inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika ilə təchizatı üçün lazımi addımlar atılacaqdır.

Heydər Əliyev hər zaman məcburi köçkünlərin problemləri ilə maraqlanırdı, onlara böyük qayğı, diqqət göstərirdi. O vaxt biz donor təşkilatlardan böyük dərəcədə asılı idik, çünki bizim maliyyə imkanlarımız yox idi. O vaxt böyük işlər görüldü ki, beynəlxalq təşkilatlar Azərbaycana yardım göstərsinlər və bu yardım hesabına müəyyən mənada köçkünlərə şərait yaradıldı. Heydər Əliyev göstəriş verdi ki, ilk neftdən Azərbaycan Dövlət Neft Fonduna daxil olan gəliri məcburi köçkünlərin problemlərinin həllinə istifadə edək. Belə də oldu. Yadımdadır, yağışlı hava idi, gözəl mənzərəli yer idi, Heydər Əliyev özü şəxsən o köçkün qəsəbəsinin açılışını qeyd etdi. Bu gün bu siyasət davam etdirilir. Bu günə qədər yüzdən çox şəhərcik salınıb, 100 minlərlə köçkün yeni evlərlə, mənzillərlə təmin edilib.

Biz bu illərdə digər sosial layihələri uğurla icra etmişik. Son 15 il ərzində əməkhaqqının, pensiyanın 10 dəfəyə yaxın artırılması bizim sosial siyasətimizi göstərir. Biz iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görmüşük. Bu gün bu istiqamətdə işlər davam etdirilir. İqtisadiyyatın neft-qaz amilindən asılılığını azaltmaq üçün praktiki addımlar atılır. Son 15 il ərzində iqtisadiyyat 3 dəfə artıb, çox gözəl biznes mühiti yaradılıb. Dünya Bankının hesablamalarına görə, biz bu göstərici üzrə dünya miqyasında 25-ci yerdəyik. Yəni islahatlar aparıldı və ölkə qarşısında duran problemlər həll olunmağa başlandı. Əgər biz buraya texnoloji inkişafı əlavə etsək, deyə bilərik ki, bu gün Azərbaycanın 3 peyki var, Azərbaycan kosmik klubun üzvüdür. Bu da böyük nailiyyətdir, tarixi nailiyyətdir. Enerji təhlükəsizliyi sahəsində görün nə qədər böyük işlər görüldü. Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına yönəldilir. Bu gün biz daha böyük enerji layihəsini icra edirik və əminəm ki, uğurla başa vuracağıq. Baxmayaraq ki, açıq dənizə çıxışımız yoxdur, biz Azərbaycanı nəqliyyat mərkəzinə çevirmişik. Bu sahəyə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Çünki bundan sonra Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək öz büdcəsini artıracaqdır. Azərbaycana daxil olacaq vəsait sadəcə coğrafi vəziyyətdən və tranzit imkanlardan asılı olacaqdır.

Əlbəttə ki, əldə edilmiş nəticələr haqqında çox danışmaq olar. Amma bizim əsas vəzifəmiz gələcəyə baxışımızdır. Biz necə inkişaf etməliyik, hansı yollarla inkişaf etməliyik? Bir şeyi qətiyyətlə deyə bilərəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Biz daim irəliyə baxmalıyıq. Dünya dəyişir, bölgə dəyişir, bölgədə yeni çağırışlar meydana çıxır, 15-20 il bundan əvvəl olan vəziyyət bu gün tamamilə fərqlidir. Bölgənin, dünyanın geosiyasi mənzərəsi tam fərqlidir və biz buna hazır olmalıyıq. Ona görə hər bir məsələ ilə bağlı biz çox operativ və çevik fəaliyyət göstərməliyik və göstəririk. Ölkəmizin maraqlarını müdafiə etməliyik. Biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycanı mümkün olan risklərdən qoruyaq, necə ki, bu günə qədər qorumuşuq. Bu, asan məsələ deyil. Çünki hər birimiz yaxşı bilirik ki, dünyada gərginlik çoxalır, beynəlxalq hüququn normaları pozulur, bu normalara məhəl qoyulmur və ölkələr arasında gərginlik artmaqdadır. Ona görə bizim əsas məqsədimiz uğurlu xarici siyasətdən istifadə edərək ölkəmiz üçün mövcud olan və gələcək mümkün riskləri azaltmaqdır. Biz bu istiqamətdə fəal işləyirik. Ancaq deyə bilərəm ki, bu, asan məsələ deyil.

Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək.

Sabitlik hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Dünyaya, beynəlxalq mənzərəyə baxın. Harada ki, sabitlik pozulur ölkələr geriyə gedir, idarəolunmaz vəziyyətə düşür, ölkələrdə xoşagəlməz proseslər başlayır, xarici təsir artır, daxili çəkişmələr baş verir və ölkələr öz gələcəyini itirir. Son illər ərzində sabitliyi pozulan ölkələrin bugünkü mənzərəsinə nəzər salın. Nə görəcəyik? Müharibə, qardaş qanının tökülməsi, dağılmış şəhərlər, sıradan çıxmış infrastruktur, iflic vəziyyətə düşmüş sənaye, milyonlarla qaçqın-köçkün, çadır şəhərcikləri, o şəhərciklər ki, biz onlardan 2007-ci ildə xilas olmuşuq. Mən o vaxt seçkiqabağı söz vermişdim ki, 5 il ərzində bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Bunu biz 4 ilə etdik. Yəni sabitliyin pozulması buna gətirib çıxarır. Hər bir insan bilməlidir ki, sabitlik böyük sərvətdir. Biz bunu çox böyük fədakarlıq göstərərək əldə etmişik.

Yadımıza 1990-cı illərin əvvəllərini salaq. Nələr baş verirdi? Azərbaycan idarəolunmaz vəziyyətdə idi, Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müxtəlif çaxnaşmalar, toqquşmalar ölkəmizi tamamilə iflic vəziyyətə salmışdı. Bundan istifadə edən Ermənistan torpaqlarımızı zəbt etdi. Əgər o vaxt Azərbaycanda sabitlik olsaydı və əgər o vaxt Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanın rəhbəri olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşə bilməzdi. Ona görə biz bilməliyik ki, sabitliyin mövcudluğu Azərbaycanın, gənc nəslin xoşbəxt gələcəyidir. Bir daha demək istəyirəm ki, Azərbaycanda sabitlik möhkəm qorunur. Düzdür, bəzi cəhdlər göstərilir, tam iflasa düçar olmuş bəzi qruplaşmalar, hansılar ki, Azərbaycanı 1990-cı illərdə bərbad vəziyyətə qoydular, həmin dəstələr yenə də nə isə əldə etməyə çalışırlar. İndi onların mübarizə üsulu yalan, şər, böhtan, uydurma, iftiradır. Onların bundan başqa mübarizə üsulu yoxdur və müxtəlif media vasitələrindən istifadə edərək ölkəmizə qara yaxırlar. Həm ölkə daxilində, həm də xaricdə çox eybəcər bir mənzərə yaratmağa çalışırlar. Azərbaycan xalqı onları yaxşı tanıyır. Məhz onlar Azərbaycanı bərbad vəziyyətə qoydular, onlar ölkəmizi dağıtdılar, onlar vətəndaş müharibəsinə start verdilər, qardaş qanı tökdülər. Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir.

Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik. Çünki bir daha demək istəyirəm, əldə edilmiş nəticələr hesab edirəm ki, tarixdə qalmalıdır. Biz bunu bilməliyik ki, haradan gəlmişik, hara çatmışıq. Ancaq bu, tarixdir, biz gələcəyə baxmalıyıq. Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Əgər belə olmasaydı, milyardlarla dolları Azərbaycana kredit şəklində verərdilərmi? Əlbəttə ki, yox.

İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır. Biz əməkhaqlarını, pensiyaları, müavinətləri nəyin hesabına artırırıq? Ona görə ki, daha da səmərəli işləyirik, ona görə ki, büdcə daxilolmaları artır və artacaq. Biz hələ islahatların növbəti mərhələsinin başlanğıcındayıq və bu ilin dörd ayının yekunları deməyə əsas verir ki, çox böyük nəticələr əldə edilir. Bu, bizə imkan verir ki, sosial sahəyə həm maddi təminat, həm də islahatlar baxımından daha böyük diqqət göstərilsin. Dünən, Ulu Öndərin doğum günü ərəfəsində ilk "DOST" Mərkəzi yaradıldı. Bu da sosial təminat sahəsində bir inqilabdır. Necə ki, vaxtilə "ASAN xidmət" mərkəzi ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 6 milyondan çox insan "ASAN xidmət"dən istifadə edib. Bu, Azərbaycan brendidir, biz indi bu brendi intellektual məhsul kimi başqa ölkələrə ixrac edirik. Ona görə islahatların davam etdirilməsi zəruridir və bunun başqa yolu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi ilə bağlı bu yaxınlarda fərman imzalanıb. İndi əməli işlər aparılır ki, fərmanın icra edilməsinə başlansın. Bu da bir ciddi islahat olacaq. İcbari-tibbi sığorta Azərbaycanda pilot layihə kimi icra edilibdir və nəticələr həddindən artıq müsbətdir. Biz bəlkə də heç gözləmirdik ki, bu qədər müsbət nəticələr olacaq. Bu, həm əhali, həm həkimlər tərəfindən, həm də bütün digər sahələrdə yüksək qiymətləndirilir. Biz qabağa baxmalıyıq. Dünya dəyişir, bir daha demək istəyirəm, biz ön sıralarda olmalıyıq və olacağıq da. Çünki üfüqlər açıqdır, siyasətimiz tam aydındır və gələcəyə nikbinliklə baxmaq üçün bütün əsaslar var.

Biz bu gün, eyni zamanda, Heydər Əliyev Fondunun 15 illiyini qeyd edirik. On beş il bundan əvvəl fond yaradıldı və bu illər ərzində bir çox sahələrdə - mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər gördü. Təhsil sahəsində deyə bilərəm ki, fondun təşəbbüsü ilə başlanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikildi, təmir edildi. Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı - uşağı, xəstəni fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində - bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün Fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda, bildirmək istəyirəm ki, fond Ulu Öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür.

Biz Ulu Öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik. Sağ olun!

❖ ❖ ❖

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə Heydər Əliyev Mükafatının verilməsi ilə bağlı Sərəncamı oxundu.

Prezident **İlham Əliyev** dedi:

- Xoşbəxt müəllimdə Azərbaycan dövlətinin və ovaxtkı Sovet İttifaqının demək olar ki, bütün mükafatları var və buna öz əməyi ilə layiq görülüb. İndi təkcə bu mükafat qalmışdı, bunu da bu gün təqdim edəcəyik. Azərbaycanda elə bir adam yoxdur ki, Xoşbəxt müəllimi sevməsin, ona hörmət göstərməsin. O, neftçilərin simvoludur. O, ən təcrübəli, bilikli, qayğıkeş, əsl Azərbaycan ziyalısıdır, Azərbaycan geoloqudur, Azərbaycan neftçisidir. Biz Xoşbəxt müəllimlə fəxr edirik, gəlin, onu alqışlayaq.

Onu da bildirmək istəyirəm ki, mən Neft Şirkətində çalışdığım dövrdə Xoşbəxt müəllimlə qonşu idik, ikimizin bir qəbul otağı var idi. Biz demək olar ki, hər gün görüşürdük, söhbətləşirdik. Xoşbəxt müəllimin çox gözəl söhbətləri var. O, gözəl tarixi hadisələri yadda saxlayır. Bu gün böyük məmnunluq hissi ilə mən bu yüksək mükafatı Xoşbəxt müəllimə təqdim edirəm.

Dövlət başçısı Heydər Əliyev Mükafatını akademik Xoşbəxt Yusifzadəyə təqdim etdi.

# qarşısında tarixi xidmətləri heç vaxt unudulmayacaq

## siyasi irsini təbliğ etmək üçün böyük işlər görür











Mükafata görə təşəkkürünü bildirən **Xoşbəxt Yusifzadə** dedi:

- Çox sürprizlər görmüşdüm, amma bugünkü mükafat mənim üçün lap gözlənilməz oldu. Heydər Əliyev cənablarının anadan olan günündə mənə bu mükafatın verilməsi bir daha onu göstərir ki, doğrudan da mən xoşbəxt adamam. Ötən 67 ildə neft sənayesində nəyə nail olmuşamsa, hamısını Heydər Əliyev cənablarının rəhbərliyi altında əldə etmişəm. Cənab Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə təkcə mənə yox, bütün neftçilərə, neft sənayesinə böyük qayğı göstərib. Hamınız bilirsiniz ki, Ulu Öndər yenidən hakimiyyətə gələndə respublikada iqtisadi vəziyyət çox ağır idi və onu tez bir zamanda düzəltmək mümkün deyildi. Ancaq cənab Heydər Əliyev bilirdi ki, Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün neft sənayesini inkişaf etdirmək lazımdır. Odur ki, bütün gücünü neft sənayesinə yönəltdi. Prezident İlham Əliyev burada "Əsrin müqaviləsi"ndən danışdı. Bu il "Əsrin müqaviləsi"nin 25 ili tamam olacaq. Bu müqavilə heç də asan başa gəlməyib, 1994-cü ildə biz ay yarım Hyustonda olduq, müqaviləyə istəyimizə uyğun qol çəkdirmək üçün çox əzablar çəkdik. Bu müqavilə həqiqətən Heydər Əliyevin şah əsəridir. Bu müqavilə ilə bağlı üç məqamı qeyd etmək istəyirəm. Birincisi odur ki, bu müqavilə imzalanandan sonra bütün dövlətlər, bütün şirkətlər başa düşdülər ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar. Heç də təsadüfi deyil ki, bundan sonra 34 müqavilə də imzalandı. İkincisi, "Əsrin müqavilə"sinin ən böyük əhəmiyyəti o oldu ki, 1997-ci ildə Azərbaycanda neft hasilatının səviyyəsi 9 milyon tona, 2010-cu ildə isə 51 milyon tona çatdı. Mən onu demək istəyirəm ki, bütün bunların hamısı Heydər Əliyevin xidmətlərinin nəticəsidir. Bu günə qədər "Azəri-Çıraq-Günəşli" yatağından 481 milyon ton neft hasil olunub ki, bunun da 279 milyon tonu mənfəət neftidir. Həmin o mənfəət neftidir ki, Azərbaycanın bugünkü inkişafını təmin edib.

Ulu Öndərin ikinci şah əsəri Bakı-Tbilisi-Ceyhan neft kəməri oldu. Mən rəqəmlər söyləmək istəyirəm, Azərbaycandan xaricə nəql olunan 503 milyon ton neftin 383 milyon tonu Bakı-Tbilisi-Ceyhan kəməri ilə daşınıb. Əgər bu kəmər olmasaydı, bu neft xaricə necə çıxarıla bilərdi?

"Şahdəniz" Heydər Əliyevin üçüncü böyük əsəridir. "Şahdəniz"ə də mane olanlar var idi. Amma cənab Heydər Əliyevin rəhbərliyi ilə bu layihə də həyata keçdi. İndi onun bəhrəsini biz hər yerdə görürük. Dahi Heydər Əliyevin yolunu indi cənab Prezident İlham Əliyev davam etdirir. Heydər Əliyev cənablarının əsasını qoyduğu strategiyanı cənab İlham Əliyev çox uğurla davam etdirir. Bu gün Azərbaycanın nailiyyətlərini saymaqla qurtarmaq olmaz. Necə deyərlər, 10-15 il Azərbaycanda olmayan adam gəlib görsə tanımaz. Təkcə Bakı deyil, bütün rayonlar müasirləşib. Nə qədər yollar çəkilib, nə qədər məktəblər, nə qədər tibb müəssisələri tikilib. Qısa bir vaxtda bu qədər işin görülməsi doğrudan da böyük nailiyyətdir. Elə neft sənayesinin özü də çox inkişaf edib. "Cənub qaz dəhlizi", TANAP, STAR neft emalı zavodu, Sumqayıtda yeni zavodlar neft sənayesində əldə olunan nailiyyətlərdir. Bunların hamısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilib. Cənab İlham Əliyev neft sənayesinin çətinliklərini çox yaxşı bilir, çünki 10 il bizimlə çiyin-çiyinə çalışıb. Buna görə də o, neftçilərə həmişə diqqət və qayğı ilə yanaşır. Allah onun ömrünü uzun, canını sağ eləsin, elə eləsin ki, Azərbaycan daha da irəli getsin.

Mən burada Birinci vitse-prezident Mehriban xanım haqqında da bir-iki kəlmə söz demək istəyirəm. Biz 1994-cü ildə Hyustonda olanda Mehriban xanım da bizimlə idi. Bir yerdə nahar edirdik. Bizə məsləhət verirdi, bunu belə edin, bunu elə edin, buna belə baxın. Ən vacibi isə o idi ki, biz gedəndə arxamızca su atırdı ki, işimiz uğurlu olsun.

Prezident **İlham Əliyev:** Yemək də bişirirdi.

**Xoşbəxt Yusifzadə:** Kim deyə bilər Mehriban xanımın bişirdiyi yeməyi yeyib? Mən yemişəm. Özü də çox dadlı bişirirdi.

Mən 67 ildir neft sənayesində işləyirəm. Azərbaycanın inkişafı Heydər Əliyevlə başladı, indi bu işi İlham Əliyev davam etdirir. Mehriban xanım Azərbaycanın adını bütün Avropada o qədər yüksəldib ki, hərdən fikirləşirəm, biz 10 milyonuq? Bəlkə çoxuq, mən saya bilmirəm? Hər yerə, haraya baxırsan, hansı Avropa ölkəsinə baxırsan, Mehriban xanım Azərbaycanın adını göylərə qaldırır.

Mehriban xanım, Allah Sizin də canınızı sağ eləsin, çox sağ olun. Bu il də əlamətdar hadisələr olacaq - "Əsrin müqaviləsi"nin 25 illiyi, Neft Daşlarının 70 illiyi. Arzu edirəm ki, Neft Daşlarının 70 illiyini yüksək səviyyədə keçirək. Çünki Neft Daşları dəniz neftinin başlanğıcını qoyan mənbədir. Ona görə də gərək biz Neft Daşlarına diqqəti heç vaxt azaltmayaq. Sağ olun.

❖ ❖ ❖

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilən "Qızıl çinar" beynəlxalq mükafatının 2019-cu il üçün təqdimetmə mərasimi keçirildi.

Fondun prezidenti Mehriban Əliyeva milli musiqi irsimizin yaşadılması və dünyada tanıdılmasına xidmət edən layihələrdə fəal iştirakına və səmərəli əməkdaşlığına görə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Əməkdar artist Fuad İbrahimova "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etdi.

Mükafata görə minnətdarlığını bildirən Əməkdar artist **Fuad İBRAHİMOV** dedi:

- Əziz Mehriban xanım.

Hörmətli cənab Prezident.

Mənə göstərdiyiniz diqqətə, qayğıya, inama görə Sizə hədsiz dərəcədə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu, məndə, əlbəttə ki, çox böyük məsuliyyət hissi oyadır. Eyni zamanda, bir şuşalı kimi, Azərbaycana uğur gətirməyə və ölkəmizi xaricdə təmsil etməyə böyük təkan verir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə mən Almaniyada iki təhsil almışam və fondun təşəbbüsü ilə xaricdə keçirilən çoxlu sayda konsertlərdə iştirak etmişəm və iştirakımız çox böyük uğurla keçib.

*Ardı 4-cü səh.*

# Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətləri heç vaxt unudulmayacaq





Əvvəli 3-cü səh.

Hər zaman ürəyimdə çox böyük bir arzu olub ki, göstərdiyiniz etimada görə Sizə şəxsən təşəkkürümü bildirim. Onu da qeyd etmək istəyirəm ki, 2018-ci il mənim həyatımda çox böyük rol oynadı. Fransanın paytaxtı Parisdə keçirilən çox nüfuzlu dirijorların beynəlxalq müsabiqəsində qalib oldum. Bundan sonra konsertlərin sayı dünyada çox artdı. Bunların hamısı Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə baş tutdu.

Çox sağ olun ki, varsınız. Biz həmişə sizinləyik. Biz sizi çox sevirik. Təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqət və qayğıya, böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafına verdiyi töhfələrə görə Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin direktor müavini Zərifə Məmmədovaya "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etdi.

Mükafatı qəbul edən **Zərifə MƏMMƏDOVA** təşəkkürünü bildirərək dedi:

- Əziz Prezidentimiz, əziz Mehriban xanım.

Əvvəla, Mehriban xanıma böyük təşəkkürümüzü bildiririk ki, bizim işimizə qiymət verib, gözəl bir bina tikdirib. Demək olar ki, Mehriban xanımın gözü həmişə bizim uşaqlarımızın üstündədir. Çox sağ olun, Mehriban xanım.

İnanın ki, əgər Mehriban xanım bizim üçün, bizim uşaqlarımız, analarımız üçün bu gözəl binanı tikdirməsəydi, indiyə kimi uşaqlar evlərdə qalardı. Biz çox minnətdarıq ki, bizim üçün dünyada analoqu olmayan belə gözəl bina tikilib, orada uşaqlar üçün hər cür şərait yaradılıb. Mən, ilk növbədə, uşaqlarımızın, anaların adından, şəxsən öz adımdan Sizə sonsuz təşəkkürümü bildirmək istəyirəm. İndi bizim uşaqlarımız çox yerlərdə festivalda iştirak ediblər. Onlar 17 ölkədə böyük hədiyyələr, diplomlar alıblar. Avstriyanın paytaxtı Vyanada onlar dünyada analoqu olmayan teatr kimi ad qazanıblar, bizim uşaqlarımız idman yarışlarında, rəsm müsabiqələrində birinci yeri tutublar. Çox sağ olun. Bu, təkcə mənim yox, bütün valideynlərin, anaların mükafatıdır. Çox sağ olun, çox minnətdaram.










Sonra geniş konsert proqramı təqdim olundu. Konsertdə tanınmış incəsənət ustalarının ifaları maraqla qarşılandı.

Xalq artisti **Polad BÜLBÜLOĞLU** dedi:

- Cənab Prezident.

Əziz və hörmətli Mehriban xanım.

Bu gün biz Ulu Öndərimizin, sevimli insanın doğum günündə onun adını daşıyan fondun 15 illiyini qeyd edirik.

Hörmətli Mehriban xanım, Azərbaycan aləmində çox gözəl deyim var: Deyirlər insan adı ilə böyüyür və adı ilə yaşayır. Sizin gözəl ananız, müdrik atanız Sizə çox gözəl bir ad verib. Siz doğrudan da mehribançılıqla çox böyük işlər görürsünüz və insanlar Sizi çox sevirlər. Mən inanıram ki, Sizin rəhbərliyiniz altında Heydər Əliyev Fondu hələ uzun illər çox işlər görəcək. Sizə müvəffəqiyyətlər, cansağlığı arzu edirəm və vaxtilə Heydər Əliyevin çox sevdiyi "Şən Azərbaycan" mahnısını oxumaq istəyirəm.

❖ ❖ ❖

Daha sonra BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Ulu Öndərin əlyazmasını Heydər Əliyev Fonduna təqdim etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimləri ilə görüşdülər.

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilib





Mayın 11-də Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Suraxanı rayonu ərazisində ağacəkmə aksiyası keçirib.

AZƏRTAC xəbər verir ki, aksiyada Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum gününü böyük təntənə ilə qeyd etdiyini bildirib. O deyib ki, YAP da bu əlamətdar hadisəni müxtəlif tədbirlərlə qeyd edir və bu, ənənə halını alıb: "Ağacəkmə aksiyası da bu tədbirlərdən biridir. Ənənəvi olaraq biz hər il belə aksiya keçiririk. İndi də Suraxanı rayonunun bu ərazisində yaşıllıq salınmasında iştirak edirik. Bununla bir tərəfdən ulu öndər Heydər Əliyevin unudulmaz xatirəsini yad edirik, digər tərəfdən yaşıllıq zolağını salmaqla Bakının ekologiyasının yaxşılaşdırılmasına öz töhfəmizi veririk".

Əli Əhmədov qeyd edib ki, YAP böyük bir gücü özündə ehtiva edir. Bu güc Azərbaycanın inkişafı naminə öz imkanlarını həmişə səfərbər edir. Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiyanın reallaşmasında partiyamızın nümayəndələri həmişə böyük fədakarlıq nümunələri göstəriblər. Bu aksiyada iştirak etməklə bizim partiyamız Prezidentimizin həyata keçirdiyi ekoloji siyasətə dəstək verir. Bütün bunlar partiyamızın mahiyyətindən irəli gəlir. Biz qurucu, yaradıcı partiyayıq. YAP öz gücünü, mütəşəkkilliyini Azərbaycan dövlətinin qüdrətinin daha da artmasına səfərbər edib. YAP təkcə siyasi proseslərdə iştirak etməklə öz missiyasını bitmiş hesab etmir, həm də cəmiyyət üçün əhəmiyyətli olan bütün proseslərdə bundan sonra da fəal iştirak edəcək.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev bildirib ki, respublikamızda ekoloji vəziyyətin yaxşılaşdırılması, geniş yaşıllıqlar zolaqlarının salınması ulu öndər Heydər Əliyevin hər zaman diqqətində idi. Ulu öndər fəaliyyətində bu məsələni daim diqqət mərkəzində saxlayırdı. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının bu təşəbbüsləri nəticəsində respublikamızın müxtəlif ərazilərində, o cümlədən Bakı şəhərində minlərlə ağac əkilib, geniş yaşıllıq zolaqları salınıb. Bugünkü aksiya nəticəsində əkilən ağaclara da daim qulluq ediləcək, müasir suvarma sistemi ilə təmin olunacaq.

Qeyd edək ki, aksiya zamanı 1,5 hektar ərazidə 1000-dən çox ağac əkilib.

# Qayğıya ehtiyacı olanların ilk "DOST"u

Əvvəli 1-ci səh.

"DOST" Mərkəzində xidmətlərin "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri, eləcə də vətəndaşların bilavasitə telefon və internet vasitəsilə müraciətləri əsasında səyyar və digər üsullarla həyata keçirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının rifahı dayanır. Bu mərkəzin yaradılmasının məqsədi də həmin amala nail olmaq, vətəndaş məmnunluğunu və sosial sferada şəffaflığı təmin etməkdir.

"DOST" mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən layihədir. Agentlik mərkəzlər vasitəsilə "bir pəncərə" prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərəcək. Həmin qurum tərəfindən 2019-2025-ci illərdə Bakıda və regionlarda 31 "DOST" mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub.

Qələbə Günü - mayın 9-da Bakının Yasamal rayonunda ilk "DOST" mərkəzinin açılışı olmuşdur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdikləri açılışda dövlət başçısı qeyd etdi ki, sosial sahəyə diqqət dövlətin əsas prioritetidir. Həmin məqsədlə sosial sahəyə xüsusi önəm verilir və bu istiqamətdə vaxtaşırı islahatlar keçirilir. Əsas hədəf həyata keçirilən islahatlar vasitəsilə əhalinin sosial təminatını daha da yaxşılaşdırmaqdır. Dövlət başçısı sosial sahəyə göstərilən qayğının əhəmiyyətini vurğulayaraq demişdir: "Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. Əlbəttə, buna nail olmaq üçün, ilk növbədə, iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq".



"DOST"-un başlıca iş prinsiplərindən biri əhalinin məşğulluğunu müxtəlif yollarla təmin etməsidir. Bu məqsədlə Özünüməşğulluq Proqramı vasitəsilə əhali məşğulluğa cəlb ediləcək. Artıq bir neçə ildir ki, bu istiqamətdə müəyyən işlər görülür. Əsas məsələ odur ki, insanlar sosial müavinətdən imtina edərək özünüməşğulluq proqramları vasitəsilə fərdi işlərini qurmaqla sahibkara çevrilsinlər. Ötən illərin təcrübəsi göstərir ki, bu proqramların icrası yerlərdə əhali tərəfindən rəğbətlə qarşılanır və Özünüməşğulluq Proqramından istifadə etmək istəyənlərin sayı sürətlə artır. Bunu nəzərə alaraq ölkəmiz Dünya Bankı ilə bu sahədə əməkdaşlıq etmək istəyir. Əldə olunan ilkin razılığa əsasən, cari il təqribən 10 minə yaxın vətəndaş Özünüməşğulluq Proqramının imkanlarından istifadə edəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib













Mayın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində növbəti həyətin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Nizami rayonu, Bəhruz Nuriyev küçəsi, 37, 39, 41, 47, 49 və Qara Qarayev prospekti, 59 ünvanlarında 2000 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə 1 minifutbol meydançası, 2 şahmat meydançası, idman qurğuları, uşaqlar üçün oyun meydançası, 10 söhbətgah və oturacaqlar quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Azərbaycanın hərbi sənaye məhsulları növbəti beynəlxalq sərgidə nümayiş etdiriləcək

Belarus Respublikası Dövlət Hərbi Sənaye Komitəsinin təşkilatçılığı ilə Minsk şəhərində “MILEX-2019” IX beynəlxalq silah və hərbi texnika sərgisi keçiriləcək. Dörd gün davam edəcək sərgi çərçivəsində VIII Müdafiə və Təhlükəsizlik Sahəsində Hərbi-Texniki Əməkdaşlıq Sualları üzrə Beynəlxalq Elmi Konfransın keçirilməsi də planlaşdırılır. Tədbirdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi də təmsil olunacaq.

2001-ci ildən etibarən iki ildənbir keçirilən “MILEX” sərgisinə Müdafiə Sənayesi Nazirliyi bu günə qədər rəsmi heyətlə qatılıb. İştirakçı sayına və infrastrukturuna görə Şərqi Avropanın böyük sərgilərindən biri hesab olunan bu sərgidə nazirlik ilk dəfə stendlə təmsil olunacaq və məhsullarını nümayiş etdirəcək. Bununla bağlı müdafiə sənayesi nazirinin müavini Yəhya Musayevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti Minskdə səfərdə olacaq.

Hərbi təyinatlı məhsulların istehsalında daxili tələbatın qarşılanması ilə yanaşı, ixrac imkanlarının genişləndirilməsini də nəzərə alan Müdafiə Sənayesi Nazirliyi “MILEX-2019” sərgisində də əsasən ixrac yönümlü məhsullarını nümayiş etdirəcək. Bu məhsullardan snayper tüfənglərini, avtomatları, hücum pulemyotlarını, qumbaraatanları, minaatanları, müxtəlif çaplı döyüş sursatlarını və s. göstərmək olar.

Əməkdaşlıq əlaqələrinin genişləndirilməsində böyük fürsətlər yaradacaq bu platformada - “MILEX-2019” sərgisində müvafiq qurumlarla hərbi-texniki sahədə əlaqələrin inkişaf etdirilməsi və yeni birgə layihələrin reallaşdırılması istiqamətində müzakirələr aparılacaq. Sərgi çərçivəsində nazir müavini Yəhya Musayevin Belarusun dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkət nümayəndələri ilə görüşləri də nəzərdə tutulur. Qeyd edək ki, Müdafiə Sənayesi Nazirliyi bu günə qədər 40-dan çox beynəlxalq sərgiyə qatılıb və məhsullarını nümayiş etdirib.

# Yüksək sosial rifah naminə

## İlham Əliyevin qətiyyətli qərarları, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış məntiqli siyasətinin təzahürüdür

***Əvvəli 1-ci səh.***

2019-cu ilin əvvəlindən başlayaraq dövlət başçısı sosial paketi çərçivəsində fərman və sərəncamlar imzaladı və bu sənədlərə əsasən minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artdı, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər yüksəldi. Eləcə də müharibə əlilləri kimi, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olanların, o cümlədən Aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər 100 faizədək artırıldı. Bir sözlə, 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz çoxaldı.

Onu da əlavə edək ki, Prezidentin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Prezidentin sərəncamına əsasən bu il də İkinci Dünya müharibəsinin iştirakçılarına 1000 manat məbləğində, 1941-1945-ci illər müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad (indi Sankt-Peterburq) şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Eyni zamanda Veteranlar Təşkilatına 300 min manat vəsait ayrılıb.

Bütün bunlar bir daha təsdiqləyir ki, şəhid ailələri, veteranlar, qaçqın və məcburi köçkünlər, aztəminatlı ailələrə hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

Prezident İlham Əliyev bütün çıxışlarında bu məsələlərə toxunaraq deyir ki, sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə xüsusi diqqət göstərilir. Həyata keçirilən siyasətin sosialyönümlülüyünü imzalanan fərman və sərəncamlar, həyata keçirilən sosial layihələr bir daha təsdiqləyir. “Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. Əlbəttə, buna nail olmaq üçün ilk növbədə iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq. Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bir-biri ilə bağlı olan məsələlərdir. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə işlər uğurla gedir”, - deyə Prezident vurğulayıb.

Bu gün Azərbaycan iqtisadiyyatı həqiqətən də çoxşaxəli iqtisadiyyata çevrilir. Çünki özəl sektor ümumi daxili məhsulda təqribən 80 faiz təşkil edir. Bu da iqtisadi artımı şərtləndirən əsas amildir. Bu artım da sosial sahəyə daha böyük diqqət göstərmək üçün real imkanlar yaradır.

Onu da əlavə edək ki, bu ilin təkcə 4 ayı ərzində vergi (270 milyon) və gömrük (100 milyon) orqanları 400 milyon manata yaxın əlavə vəsait toplayıblar. Məhz bu əlavə maliyyə resursu pensiyaların, maaşların, sosial müavinətlərin artmasını şərtləndirir.

Əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində bundan sonra da mühüm işlərin görüləcəyini söyləyən dövlət başçısı vurğulayıb ki, minimum əməkhaqqının, minimum pensiyanın artırılması gündəlikdə duran məsələlərdir.

Nazirlər Kabinetinin son iclasında da dövlət başçısı islahatların uğurlu nəticələrindən söz açarkən bildirmişdi ki, bütün bunlar hökumətin düzgün yolda olduğunu göstərir və bu da onu deməyə əsas verir ki, islahatlara alternativ yoxdur. Prezidentin son 4 ayda böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Dövlət başçısı vətəndaşın sosial rifahının yaxşılaşdırılması üçün mümkün olan bütün vasitələrdən istifadə edir.

Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür desək, yanılmarıq.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***

Atəşkəsin imzalanmasından 25 il ötür

# Azərbaycan XİN Ermənistanla atəşkəsin əldə edilməsinin 25 illiyi ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan və Azərbaycan arasında atəşkəsin əldə edilməsinin 25 illiyi ilə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

1994-cü il mayın 12-də Ermənistan ilə Azərbaycan arasında atəşkəsin əldə olunmasından 25 il ötür. Münaqişə zonasında atəşkəsin elan edilməsi birmənalı şəkildə bütün hərbi fəaliyyətin dayandırılması, işğalçı qüvvələrin geri çəkilməsi, beynəlxalq sülhməramlı qüvvələrin yeridilməsi, kommunikasiyaların bərpası, məcburi köçkünlərin geri qayıtması və münaqişənin yekun həlli üçün danışıqların davam etdirilməsi kimi məqsədlərlə əlaqələndirilib. Bu, o deməkdir ki, atəşkəs yuxarıda qeyd edilən məqsədlər kontekstində kompleks yanaşmanı nəzərdə tutur. Yəni, atəşkəsə riayət olunması təkcə atəşin dayandırılması deyil, həmçinin hərbi qüvvələrin münaqişə zonasından çıxarılmasını və işğal vəziyyətinin möhkəmləndirilməsinə xidmət edən fəaliyyətdən, o cümlədən məcburi köçkünlərin qayıdışına maneə olan hərəkətlərdən çəkinilməsini nəzərdə tutur.

Atəşkəsin əldə edilməsinə baxmayaraq, ötən 25 il ərzində Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrində tarixən yaşayan azərbaycanlıların etnik təmizlənməsi ilə nəticələnən, beynəlxalq tanınmış ərazilərimizin beşdəbirinin Ermənistan tərəfindən işğalı hələ də davam edir. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərində qanunsuz mövcudluğunu davam etdirməkdədir. Dünya ictimaiyyətinin tələbləri, o cümlədən beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına cavabdeh olan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr təcavüzkar Ermənistan tərəfindən rədd edilir. ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin başçılarının da dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan ərazilərinin işğalı nəticəsində yaradılmış status-kvo dayanıqlı deyil və qəbuledilməzdir.

Atəşkəs, həmçinin münaqişənin həlli üçün danışıqların sürətləndirilməsini nəzərdə tutur. Aydındır ki, atəşkəs münaqişənin həlli deyil, o, münaqişənin həllinə aparan yolda müvafiq təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi üçün şərait yaradır. Lakin bütün bu illər ərzində Ermənistan münaqişənin həlli üzrə nəticəyə yönəlik substantiv danışıqların aparılmasından və beynəlxalq ictimaiyyətin işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması tələbindən davamlı imtina edir.

Ermənistan öz əhalisini və beynəlxalq ictimaiyyəti yanıltmaq cəhdlərindən əl çəkərək təcavüz və etnik təmizləmə siyasətinə son qoymalı, öz beynəlxalq öhdəliklərinə əməl etməli və münaqişənin ən qısa zamanda həlli üzrə aparılan danışıqlar prosesində konstruktiv şəkildə iştirak etməlidir.

Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünün təmin olunması, etnik təmizləməyə məruz qalan azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının sülh şəraitində birgəyaşayışının təşviq olunması Ermənistan və Azərbaycan arasında normal qonşuluq münasibətlərinin bərpa olunmasının və bölgədə davamlı sülhün, təhlükəsizliyin və inkişafın təmin edilməsinin əsasını təşkil edir.

# Zaman Azərbaycanın xeyrinə işləyir

## Proseslər ölkəmizin ərazi bütövlüyünün bərpasına doğru gedir

Bu gün Ermənistan ilə Azərbaycan arasında atəşkəs elan edilməsindən 25 il ötür. 1994-cü il mayın 8-də tərəflər arasında atəşkəsin əldə edilməsi barədə imzalanmış “Bişkek protokolu” mayın 12-də qüvvəyə minmişdir və həmin gündən cəbhə xəttində fəal hərbi əməliyyatlar dayandırılmışdır.



Lakin bu illər ərzində cəbhə xəttində tam olaraq atəşin kəsilməsindən söhbət belə gedə bilməz. Ötən 25 ildə atəşkəs razılaşması sadəcə nisbi xarakter daşımışdır. Xüsusən 2014-cü ilin avqust və noyabr aylarında, 2016-cı ilin aprelində erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar cəbhə xəttində baş verənlər göstərdi ki, müharibə davam edir.

Atəşkəs razılaşması barədə söhbətlər ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 1994-cü ilin əvvəllərindən başlamışdı.1993-cü ilin iyun ayından ölkəyə rəhbərliyə başlayan Heydər Əliyev səriştəsiz iqtidarların Azərbaycana “miras” qoyub getdikləri çox ciddi problemləri həll etməli oldu. Müstəqilliyimizin qorunub saxlanılması, ictimai-siyasi sabitliyin yaradılması istiqamətində mühüm addımlar atıldı. Bunlara paralel olaraq ulu öndərin 1993-cü ilin noyabrında ordu ilə bağlı müraciəti ölkəmizdə ordunun formalaşdırılması prosesinin start nöqtəsi kimi tarixə düşdü. Çox keçmədi ki, yenidən formalaşdırılan Azərbaycan Ordusu Füzuli və Murov istiqamətlərində erməni ordusunun mövqelərinə əhəmiyyətli zərbə endirdi, işğal olunmuş ərazilərimizin bir hissəsi azad edildi. Xüsusən Horadiz əməliyyatı Ermənistanda ciddi təşviş doğurdu. Azərbaycanda hərbi quruculuğun çox sürətlə getməsi qarşı tərəfi işğalçılıq planlarını davam etdirmək arzusundan çəkindirdi və 1994-cü ilin may ayında Ermənistan hakimiyyəti atəşkəs haqqında sazişin imzalanmasına razılıq verməli oldu.

Atəşkəsdən sonra aparılan sülh danışıqlarında ATƏT-in Minsk qrupu hamı tərəfindən tanınan yeganə vasitəçidir. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır. Bu təşkilatların müvafiq sənədlərində erməni qoşunlarının Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilir.

Aparılan sülh danışıqlarına gəldikdə isə, bu məsələ artıq ilk vaxtlardan regional müstəvidən çıxaraq beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb. Lakin təəssüflə qeyd etməliyik ki, Minsk qrupu vasitəsilə aparılan sülh danışıqları 1994-cü ildəki atəşkəs razılaşmasından bəri nəticəsiz qalır. İndiyədək problemin həlli ilə bağlı bir neçə variant nəzərdən keçirilib. Amma bütün həll variantları məhz Ermənistanın qeyri-konstruktivliyi ucbatından alınmayıb.

Azərbaycan problemin həllinə dair vasitəçilərin təqdim etdiyi hər bir variantı dəstəkləsə də, Ermənistan bunu etməyib və həm birbaşa, həm də dolayısı regiondakı status-kvonun dəyişməz qalmasına çalışıb.

“Bişkek protokolu”na əsasən, atəşkəs rejimi real sülh addımları ilə müşayiət olunmalı idi. Sənədə görə, yaxın vaxtlarda işğal olunmuş ərazilərin boşaldılması, kommunikasiyaların bərpası və köçkünlərin geri qaytarılmasını nəzərdə tutan “etibarlı sülh sazişi” imzalanmalı idi. Lakin “ən yaxın günlər” əvvəlcə aylar, sonra illərlə əvəzləndi. Məsələnin təəssüf doğuran tərəfi isə Ermənistanın nümayiş etdirdiyi ədalətsiz mövqenin Avropanın və dünyanın gözü qarşısında baş verməsidir. Avropadakı mövcud münaqişələri qəti şəkildə aradan qaldıran beynəlxalq birliyin Azərbaycanın ərazi bütövlüyünün pozulmasına olan etinasız münasibəti, məsələyə yanaşmada ikili standartlardan çıxış etməsi, işğalçını öz adı ilə çağırmaqdan çəkinməsi nə qədər acı olsa da gözümüzün önündə baş verən reallıqdır. Prosesə real təsir imkanlarına malik olan siyasi dairələr problemin həllinə nail olmaq üçün konkret təzyiq mexanizmlərindən istifadə etmək istəmirlər.

Bu müharibədə uduzan tərəf Ermənistan və onun xalqıdır. Çünki əslində bu ölkə özünün təcavüzkar siyasətinin qurbanı olub və regionda gedən bütün inkişaf proseslərindən kənarda qalıb. Azərbaycan yürütdüyü siyasətlə bu işğalçı dövlətin regional layihələrə qoşulmasına imkan verməyib. Beləliklə, Ermənistan qonşuları ilə normal münasibətlər yarada bilməməsi səbəbindən iqtisadi blokadada qalıb və 25 il əvvəl olduğu kimi, indi də erməni xalqı səfalət içində yaşayır. Bu da nəticə etibarilə Ermənistanda başqa bir problemə - əhalinin sürətlə azalmasına gətirib çıxarıb.

Azərbaycan isə sürətlə inkişaf edən, regionun lideri olan və buradan keçən bütün qlobal əhəmiyyətli layihələrin taleyini müəyyən edən dövlətdir. Respublikamızın iştirakı və razılığı olmadan bölgədə hər hansı iqtisadi layihənin reallaşması mümkün deyil. Dünyanın enerji təhlükəsizliyinə, terrorzimlə mübarizəyə böyük töhfələr verən Azərbaycan həm də dünya birliyində özünə layiqli yer tutub.

Ermənistanın status-kvonu ciddcəhdlə saxladığı 25 ildə Azərbaycan böyük inkişaf yolu keçərək, həm də silahlı qüvvələrini gücləndirib. Ölkəmizdə ordu quruculuğu məsələləri daim gündəmdə olmaqla dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Sürətli inkişafımız və maliyyə imkanlarımızın artması bu sahədə aparılan işlərin yeni keyfiyyət mərhələsinə qaldırılmasına təkan verib. Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti sayəsində silahlı qüvvələrimizin əsasını təşkil edən bütün hərbi birləşmələrin döyüş qabiliyyəti yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib. Silahlanmada kəmiyyətlə yanaşı, əsasən keyfiyyətə üstünlük verilib. Ordumuzun arsenalına xüsusən müasir hərbi sənayenin ən son texnologiyaları cəlb olunub ki, bununla da Azərbaycan Silahlı Qüvvələrinin modern hərbi gücə çevrilməsi baş verib. Bu gün ordumuzun arsenalında ən müasir tanklar, piyada döyüş maşınları, zirehli transportyorlar, zenit raket sistemləri, artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, taktiki raket və minaatan kompleksləri, ağır odatan sistemlər, pilotsuz uçuş aparatları yer alıb. Dünyanın hərbi baxımdan qabaqcıl dövlətlərinin tətbiq etdikləri hava hücumundan müdafiə sistemləri Azərbaycanın səmadan etibarlı müdafiəsini təmin edir.

2016-cı ilin aprelində ordumuzun əks həmlə ilə düşmənə vurduğu sarsıdıcı zərbə ilk növbədə silahlı qüvvələrimizin yüksək döyüş imkanlarının təsdiqi kimi tarixə düşdü. Eyni zamanda, bir daha aydın oldu ki, xalqımız ərazi bütövlüyünün bərpası və işğal altındakı torpaqlarımızın erməni tapdağından azad edilməsi üçün istənilən an müqəddəs savaşa hazırdır.

Azərbaycan danışıqlar prosesinə hələlik sadiqdir. Ölkə rəhbərliyi substantiv danışıqlara hazır olduğunu daim bəyan edir, münaqişənin nəticəyə yönəlik və intensiv danışıqlar yolu ilə həlli istiqamətində həmsədrlərin səylərini dəstəkləyir. Bu mövqe Prezident İlham Əliyevin Ermənistanın baş naziri N.Paşinyanla Vyana görüşündə də ifadə olundu. Amma Ermənistanın yeni hakimiyyəti ilk gündən bu məsələdə ziddiyyətli mövqe nümayiş etdirir, sanki yaxasını əldə oluna biləcək razılaşmadan kənara çəkmək, məsuliyyətdən uzaq durmaq istəyir.

Yerevan siyasi dairələrində etiraf etməsələr də, çox yaxşı anlayırlar ki, ölkənin inkişafı və gələcəyi üçün ilk növbədə Azərbaycan ərazilərinin işğalına son qoyulmalıdır. Ancaq bu ölkə öz təcavüzkarlığının girovluğundan xilas ola bilmir. Ona görə torpaqlarımızı işğal altında saxlaması, heç bir sülh razılaşmasına getməməsi Ermənistanın dövlətçiliyinə və xalqına fəlakətdən və səfalətdən başqa heç nə gətirməyəcək. Görünən odur ki, bütün hallarda proseslər Azərbaycanın ərazi bütövlüyünün bərpasına doğru gedir.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***






# Gənclik






● İnsan kapitalı

**Ölkəmizin son illər ərzində dinamik sosial-iqtisadi inkişafında, həmçinin əldə etdiyi uğurlarda gənclərin rolu danılmazdır. Prezident İlham Əliyevin gənclər siyasətində müəyyən etdiyi prinsiplər Azərbaycan gəncliyinin biliyinə, bacarığına, gələcəyinə böyük inamı, dövlətin sabahına məsuliyyətini önə çəkməklə, qarşıya çox mühüm vəzifələr qoyur. Çünki onların belə məsuliyyətli məsələlərdə önəmli rolu var.**




## Gənclik sülh və harmoniya uğrunda mübarizədə olmalıdır

### Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun plenar sessiyasında bu barədə ətraflı fikir söylədi

Azərbaycan gəncliyi özünün aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində xüsusi fəallıq göstərir. Sevindirici hallardan biri də odur ki, gənclər bu gün cəmiyyətin avanqard qüvvəsinə çevrilməkdədir.

V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Gənclər sülh naminə: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması" mövzusunda keçirilən ikinci plenar sessiyasında iştirak edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva bildirdi ki, Azərbaycanın gələcəyi gənclərimizin təhsilindən, yeniliyi tətbiq etmək bacarığından, vətənpərvərliyi və milli-mənəvi dəyərlərə sədaqətindən asılıdır. Uğurla həyata keçirilən gənclər siyasətinin bu gün təkcə ölkəmizin ərazisi ilə məhdudlaşmadığını, onun hüdudlarından kənarda da geniş yayıldığını diqqətə çatdıran Leyla xanım xüsusi vurğuladı ki, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı gənc öz doğma Vətəni ilə qürur duyur, milli maraqların qorunması naminə səyini əsirgəmir.

#### Əməkdaşlıq, anlaşma və bütün bəşəriyyətə rəğbət

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosun moderatorluğu ilə keçirilən plenar iclasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən sessiyada qoyulan məsələnin aktuallığını diqqətə çəkdi: "Bu platforma sülh şəraitində yaşamanı daim təbliğ etmişdir. Dünyamızı daha yaxşı etmək üçün bir çox ölkələrdən insanları burada bir arada görmək olduqca xoşdur. Bu gün bizim hamımızın burada bir araya gəlməyimizin səbəbi zəngin fərqliliklər, mədəni müxtəliflikər, bəşəri dəyərlər və anlaşmadır".

Sülhün və müxtəlifliyin təbliğində məhz gənclərin rolunu xüsusi qeyd edən Leyla xanım Əliyeva vurğuladı ki, onların çoxsaylı şəbəkələr yaratmaq, həm də bütün mümkün sərhədləri keçmək kimi gözəl qabiliyyətləri var: "Sülh və harmoniya uğrunda mübarizədə gənclərə əksər hallarda ümidsiz romantiklər kimi baxırlar. Amma deyərdim ki, bu, qeyri-səmimi yanaşmadır. Əminəm ki, gənclərin dialoqa açıqlığı sülhə və rifaha gətirib çıxaracaq. Təhsil yalnız bilik və peşəkar inkişaf bacarıqlarının qazanılması deyil. Həmçinin mənəvi təhsil də bunlar qədər vacibdir. Bu baxımdan ailələr və məktəblər iki mühüm təsisatdır. Əməkdaşlıq, anlaşma və bütün bəşəriyyətə rəğbət və hörmət dəyərləri aşılayan ailə uşaqları sülhpərvər dünyaya hazırlamaqda mühüm rol oynayır. Bunlar olmayanda boşluğu nifrət və dözümsüzlük doldurur. Eyni zamanda, gənclərə doğru-düzgün təhsil vermək onların tam potensialının reallaşması üçün çox vacib bir amildir..."

Heydər Əliyev Fondunun vitse-prezidentinin xüsusi vurğuladığı kimi, gənclərin tez öyrənmək, eləcə də prosesləri izləmək, çoxsaylı məlumatları əldə etmək bacarıqları var. Həmçinin onlar ətraf mühitin mühafizə olunması və təbiətin bizə bəxş etdiyi nemətlər barədə çox məlumatlıdırlar. Bununla belə, gənclərə həddindən artıq təzyiq göstərilməməlidir: "...Bəzən ən intellektli gənclər belə tam xoşbəxt olmurlar. Ona görə də biz gənclərə dəstək göstərərək bundan da yaxşı bir dünya yaratmağa nail olmalıyıq ki, onlar gözəl planetdə və harmoniya içərisində yaşamaqdan daha çox zövq alsınlar. Yüksək texnologiyanın inkişafı sayəsində biz fikirlərimizi daha sürətlə ifadə edirik. Bizim fikirlərimiz ən güclü enerjilərdəndir, hətta işıq sürətindən də sürətlidir. Dünya bu potensiala investisiya yatırmalı və əmin olmalıdır ki, gənc nəslin inkişaf üçün bütün zəruri imkanları var. Bu gün dünyada gənclərin sayı daha çoxdur. İdeyalar və yüksəlişlər bütün planetin gələcəyini dəyişə bilər. Amma əfsuslar olsun ki, 617 milyona yaxın gənc hələ də riyazi və ədəbi biliklərdən məhrumdur. Bu, o deməkdir ki, biz çox dəyərli bir potensialı itiririk. Məhz gənclər tərəqqinin təcəssümüdür. Hər bir yeni nəsil əvvəlkindən daha mütərəqqi, humanist, həssas, tolerant və açıqfikirlidir. Bu isə tarixin təbii təkamülüdür. Gəlin gənclərə öz enerjilərini qlobal problemlərin həllinə yönəltməkdə kömək edək, gəlin hamılıqla onlara dəstək olaq.

#### Mənfi düşüncələri dəyişmək üçün gözəl fürsət

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos sessiyanı mənfi düşüncələri dəyişmək üçün gözəl fürsət adlandırdı, gəncləri ekstremizm, nifrət kimi amillərdən qorumağın vacibliyini vurğuladı.

Sessiyadakı müzakirələr cəmiyyətdə gənclərin rolu, təhsil, sülh quruculuğu və dinlərarası dialoq mövzularını əhatə etdi. Somali Stabilləşmə Təşəbbüsünün biliyin idarə olunması və strateji kommunikasiyalar üzrə rəsmisi Nacma Əhməd-Hüseyn ölkəsində müxtəlif etnik qrupların bir araya gəlməsi üçün həyata keçirilən layihələrdən söz açdı.

Sənədli filmlər rejissoru Roda Siad reallaşdırdığı layihələr vasitəsilə miqrasiya böhranı, qaçqınların və digər ölkələrdə sığınacaq axtaranların taleyi, onların qarşılaşdığı çətinliklər barədə cəmiyyətə məlumatların verilməsinin əhəmiyyətinə toxundu. Erbildə "Malteser International"ın ictimai əlaqələr üzrə məsləhətçisi Sara Markieviç İraqdakı icmalar arasında qeyri-sabit vəziyyət barədə danışaraq bu istiqamətdə dinlərarası dialoqun roluna nəzər saldı.

Zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssis Selim Çerkau terrorizmə görə məhkum edilmiş məhbuslar arasında maarifləndirmə işlərinin aparılması, onların cəmiyyətə adaptasiyası və baxışlarının dəyişməsi istiqamətlərində həyata keçirilən layihələri vacib hesab etdi.

Pakistan Gənclər Alyansının "Peace Rickshaws" layihəsinin təsisçisi Syed Ali Abbas Zaidi zorakı ekstremizmə qarşı 15 min nəfəri əhatə edən layihə və onun nəticələri ilə bağlı fikirlərini çatdırdı.

#### Kaş, sevdiyi qədər sevilə insan...

Bu forumun iştirakçılarının əksəriyyətinin yaradıcı gənclər, maraqlı və qlobal mövzuların layihə rəhbərləri olması da diqqətçəkən məqamlardandır. Belə gənclərdən biri də "Efemerides"in təsisçisi Fatoumata Kebe idi. Gənclərə imkanlar yaradılması, problemlərin həllində onlara səlahiyyət verilməsi istiqamətində həyata keçirilən layihəsindən bəhs edən müəllif qeyd etdi ki, Malidə yalnız 30 faiz qızların məktəbə getmək imkanı var və onun rəhbərlik etdiyi təşkilat isə belə ölkələrdə müxtəlif fənlər üzrə dərslər təşkil edir.

Mərkəzi Avropa Universitetinin beynəlxalq münasibətlər üzrə magistr namizədi Corc Antonio Şavez Mazuelos, "Sri Lanka Unites" Gənclər Hərəkatının milli direktoru Liyanaaraççig Neluni Tillekeratne, "Emkan Education"nın məktəb və məzmun üzrə direktoru və həmtəsisçisi Sara Zaini, BMT-nin Gənclər Siyasəti üzrə mütəxəssisi Ansa Qliqa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru İmam Muhammad Nurayn Aşafa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru Pastor Ceyms Movel Vuye, "Burson, Cohn and Wolf"un idman hesabları üzrə baş icraçısı Nevena Vukasinovic, Lvov şəhər merinin dini məsələlər üzrə müşaviri Taras Dzyubanski və başqaları panel iclasında gənclərin fəallığı üçün proqramların əhəmiyyətini, zorakılığa, terrorizmə məruz qalanların təhsil almasında təqaüd proqramlarının faydasını qeyd etdilər.

Xatırlatmaq yerinə düşər ki, ictimai-siyasi fəaliyyəti dövründə daim gəncliyin potensialının üzə çıxmasında fəallıq göstərən, bir-birindən maraqlı layihələrlə onların enerjisini müsbət istiqamətə yönəldən Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla xanım Əliyeva Romada keçirilən Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun iştirakçılarına müraciətində də bir daha bu məsələləri diqqət mərkəzində saxlamışdır: "Azərbaycan hökumətinin dəstəyi ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı çərçivəsində həyata keçirilən bu forum miqyasına görə ASAIF tədbirlərinin ən böyüyüdür. Əgər Strasburq, Budapeşt və Vyana forumlarında əsasən Avropada təhsil alan tələbələrə üstünlük verilirdisə, indi ASAIF dünyanın müxtəlif şəhərlərində təhsil alan azərbaycanlı gəncləri Romaya gətirərək Azərbaycan həqiqətlərinin beynəlxalq təşkilatlarda müzakirəyə çıxarılmasına, Azərbaycanın gələcəyi ilə bağlı fikir mübadiləsinin aparılmasına müvəffəq olmuşdur. Bu baxımdan, forum iştirakçıları arasında Amerika və Uzaq Şərq, Asiya ölkələrində, Afrika və Latın Amerikasında təhsil alan tələbələri görmək təqdirəlayiq haldır".

Gənclik, sözün əsl mənasında, gələcək olduğu kimi, həyatda ən vacib olan sevgidir, xoşbəxtlikdir, birlikdir, anlaşmaqdır və bir-birini təmənnasız şəkildə dəstəkləməkdir. Bütün bunlar isə hər bir fərd üçün sağlam həyat deməkdir. Ona görə də müdriklərimiz heç də ötəri yerə deməyib: "Kaş, sevdiyi qədər sevilə insan..."

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Tələbə həyatı

## Karyera imkanı və istehsalat təcrübəsi

**Bugünkü gəncliyin potensialının üzə çıxarılması və onlardan maksimum istifadə dövlət gənclər siyasətinin mühüm istiqamətini təşkil edir. Məhz, bunun nəticəsidir ki, bu sosial təbəqə istər ölkə daxilində, istərsə də beynəlxalq miqyaslı tədbirlərdə fəallıqları ilə seçilirlər.**





Gənclərimiz müxtəlif layihələrin icrasında könüllü kimi iştirak edərək təcrübə toplayır, gələcək karyera irəliləyişlərinə doğru ilk mühüm addımlarını atırlar. Azərbaycanda yaradılmış əlverişli biznes mühiti gənc sahibkarların öz biznes ideyalarını reallaşdıra bilmələrinə mühüm şəraiti təmin edir. İnnovasiyalar, yeni mütərəqqi ideyalar bu gün cəmiyyət həyatına gənclər vasitəsilə, onların yaxından iştirakı ilə daxil olur.

Müasir dövrdə işəgötürənlərin tələbləri kifayət qədər yüksəkdir. Hər bir müəssisə işə təyin edəcəyi potensial kadrda nəzəri biliklərlə yanaşı, praktik təcrübə, sosial bacarıqlar, liderlik xüsusiyyətləri və s. kimi keyfiyyətlər axtarır ki, bu da müasir dövrün tələblərinə tam uyğundur. Bu faktoru nəzərə alaraq, Bakı Ali Neft Məktəbində təhsil və tədris prosesi müasir təlim texnologiyaları əsasında nəzəri biliklərin istehsalatla sıx əlaqəsinə yönəlmişdir.

BANM Azərbaycanda fəaliyyət göstərən enerji, avtomatika və İKT sahələrində ixtisaslaşmış bir çox aparıcı transmilli və yerli şirkətlərlə yaxından əməkdaşlıq edir. İxtisaslı və müasir dövrün tələblərinə cavab verən mütəxəssis axtarışında olan bu müəssisələr üçün tələbələrimiz potensial kadr rolunu oynayırlar. SOCAR, BP, "Total", "Statoyl", "Schlumberger", "Hallburton", "Emerson Process Management", AVANDSİS GROUP, "Schneider Electric", ABB, "Microsoft", "Baker Hughes", "E.On" kimi şirkətlər ali məktəbin sıx əməkdaşlıq etdiyi partnyorlardır. Sözsüz ki, bu partnyorların sayı ilbəil artmaqda davam edəcəkdir.

Təbii ki, bu tərəfdaşlıq qarşılıqlı maraq prinsipləri əsasında formalaşdığından BANM tələbələri də bu şirkətlərin xidmətlərindən və zəngin təcrübəsindən faydalanırlar. Əmək bazarının müasir tələbləri nəzərə alınaraq, tələbələr təhsil aldıqları müddətdə yay və qış tətilləri ərzində təhsil ocağının əməkdaşlıq etdiyi şirkətlərin müəssisələrində təcrübə keçir, praktik bilikləri öyrənirlər.

BANM-in hərtərəfli dəstəkçisi olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) strateji yollarla enerji sektorunda milliləşdirmə siyasətini həyata keçirərək Azərbaycanda neft-qaz sektorunda çalışan ixtisaslı kadrların hazırlanması məqsədini reallaşdırır və bunu şirkətin fəaliyyətinin əsas prioritetlərindən biri hesab edir. SOCAR şirkətin avtomatik idarə olunan insan resursları məlumatlar bazasını yaratmışdır və xarici şirkətləri də bu sistemdən istifadə etməyə dəvət edir.

Milliləşdirmə siyasəti hazırda qeyd olunan bir çox xarici şirkətlərin əsas strateji istiqamətləri sırasında yer alır. Məsələn, BP uzun illərdir ki, SOCAR və digər müvafiq dövlət qurumlarla birgə Azərbaycanın neft-qaz sektorunda ixtisaslaşmış milli kadrların yetişdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədilə uzunmüddətli strategiya üzərində çalışır. Bu strategiyaya əsasən, istər hökumət, istərsə də BP və onun tərəfdaşları layihə və əməliyyatlara cəlb edilmiş mütəxəssislərin azərbaycanlı olmasında maraqlıdır.

Bundan başqa, BANM-də müntəzəm olaraq təşkil edilən təlim kursları və seminarlar nəticəsində tələbələr liderlik, ünsiyyətqurma, prezentasiya, layihələrin idarə olunması, risklərin idarəolunması, vaxta nəzarət və s. kimi bilik və bacarıqlara yiyələnirlər və bu bacarıqlar onların gələcəkdə nəinki texniki heyətdə, həmçinin yüksək administrativ vəzifələrdə yer tutmaları istiqamətində mühüm əhəmiyyət kəsb edir. Üstəlik nəzərə alsaq ki, bu təlimlərin bir çoxu beynəlxalq şirkətlərin rəhbər işçiləri və aparıcı mütəxəssisləri tərəfindən həyata keçirilir, onlardan nə kimi biliklərə yiyələnməyin mümkün olduğunu təsəvvür etmək bir o qədər də çətin deyil.

Beləcə, BANM-də təhsilini uğurla başa vurmuş istənilən tələbə üçün həm Azərbaycan, həm də dünyanın müəyyən regionunda arzularında canlandırdığı karyeraya yüksəliş üçün hərtərəfli imkanlar mövcuddur. Tələbəyə sadəcə olaraq səylə çalışmaq və yaradılmış imkanlardan maksimum yararlanmaq qalır!

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

● Dövlət başçısına minnətdarlıq

## Fəallığımızı artıracağıq

**Azərbaycan Prezidentinin "I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında" 3 may 2019-cu il tarixli Sərəncamı nəinki mənim, bütünlüklə ailəmizin sevincinə səbəb olub.**



I qrup əliləm, Bakıda, Binəqədi rayonu, 3-cü mədən ərazisində yaşayıram, Azərbaycan Texniki Universitetinin Avtomatika və kompüter texnikası fakültəsinin II kurs tələbəsiyəm. Orta məktəbin 7-ci sinfində oxuyanda evimizdə ehtiyatsızlıq üzündən qaz partlayışı nəticəsində güclü yanıq xəsarəti almışam. Uzun müddət müalicə olunduqdan sonra orta təhsilimi qiyabi davam etdirmişəm. Ali məktəbə qəbul olanda ödənişliyə düşmüşdüm. Açığını deyim ki, ötən il ailəmiz çox çətinliklə 1800 manat civarında təhsil haqqımı ödəyə bildi. Atam fəhlə, anam evdar qadındır, evimizdə məndən kiçik işləməyən qardaşım var. Ailəmizdəki mövcud çətinlikləri mən də hiss edirəm. Odur ki, ölkə rəhbərinin bu sərəncamı bizim üçün də gözlənilməz və həddindən artıq sevindirici oldu.

Ölkəmizdə nəinki mənə, neçə-neçə əlil tələbəyə, habelə sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların təhsilə əlçatanlığını təmin etmək və onların təhsil almaq imkanlarını genişləndirmək üçün dövlət tərəfindən yaradılan şərait ictimaiyyət, eləcə də bu kateqoriyadan olan tələbə-gənclər tərəfindən rəğbətlə qarşılanıb. Yalnız mənə deyil, bütünlüklə gəncliyimizə göstərilən qayğıya görə dövlət başçısı İlham Əliyevə ailəmiz və öz adımdan minnətdarlığımı bildirirəm. Onu da qeyd edim ki, biz tələbələr də qayğıya məsuliyyətimizlə, daha yaxşı oxumağımızla cavab verəcəyik.

*Abbas MUSAYEV, Azərbaycan Texniki Universitetinin tələbəsi*

● Vətənpərvərlik tərbiyəsi

## Ölməz ideallara sədaqətliyik

**Ümummilli lider Heydər Əliyev bütün məqsədyönlü fəaliyyəti boyu Azərbaycan gəncliyinə xüsusi qayğı və diqqət göstərmişdir. Böyük uzaqgörənlik və siyasi müdrikliklə həyata keçirilən bu möhtəşəm missiyanın məntiqi nəticəsidir ki, müstəqil dövlətimizin idarə edilməsi bu gün etibarlı əllərdədir.**



Ulu öndər Heydər Əliyevin xalq üçün, dövlət üçün başladığı tale yüklü, həyatı əhəmiyyətli işləri respublika Prezidenti İlham Əliyev böyük uğurla davam etdirir. Azərbaycan gəncliyinin ən böyük hamisi olan Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursuna sədaqətini bütün istiqamətlərdə olduğu kimi, ölkə gəncliyinə isti və doğma münasibətdə də parlaq şəkildə nümayiş etdirir. Yüksək intellektual səviyyəyə malik gənclərə səmərəli fəaliyyət göstərmələri, vətənin, xalqın, dövlətin xeyrinə çalışmaları üçün bütün sferalarda ideal şərait yaradılmış, onlar dövlətin güclü dəstəyi ilə təmin olunmuşlar.

Bu durum Ağcabədi rayonunda da özünü açıq şəkildə büruzə verir. Dövlətin qayğı və diqqətindən güc alan rayon gəncləri onlara etibar edilmiş bütün sahələrdə inamla çalışır, göstərilən etimadı layiqincə doğruldurlar. Müqəddəs Qarabağ savaşında ağcabədili gənclər yüksək vətənpərvərlik nümunəsi göstərmişlər. Sinəsini düşmən gülləsinə sipər edən 177 ağcabədili gənc qəhrəmanlıqla döyüşərək şəhid olmuşdur. Üç nəfər igid, vətənpərvər isə Milli Qəhrəman fəxri adına layiq görülmüşdür. Rayonda gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük önəm verilir. Məktəblərdə, gənclərin əksəriyyət təşkil etdiyi əmək kollektivlərində hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinə yönəlik məqsədyönlü tədbirlərin keçirilməsi artıq pozulmaz bir ənənəyə çevrilmişdir. Belə tədbirlərin keçirilməsində təbii olaraq Ağcabədi Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Ağcabədi rayon şöbəsinin təşkilatı dəstəyinə arxalanırıq. Bu istiqamətdə aparılan siyasi-ideoloji işin məntiqi nəticəsidir ki, son illər rayonumuzda bir nəfər də olsun ordu sıralarında xidmətdən yayınmır, fərarilik hallarına təsadüf edilmir. Rayon ərazisində fəaliyyət göstərən "N" saylı hərbi hissələrlə davamlı əlaqə, əsgər və zabitlərlə canlı ünsiyyət rayon gənclərinin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Vətən onu sevənlər, milli-mənəvi dəyərlərini yaradanlar, qoruyanlar üçün vətəndir. Bu gün milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərdən kənarda təsəvvür etmək çətindir. Bu mənada biz Gənclər və idman idarəsi olaraq mənəvi tərbiyə sistemində milli və ümumbəşəri dəyərlərdən bütöv şəkildə bəhrələnməyə üstünlük veririk. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında qarşıya qoyulan vəzifələri konkret fəaliyyət proqramı kimi qəbul edərək ümummilli lider Heydər Əliyevin vətənimizin və xalqımızın işıqlı sabahlarına hesablanmış dəyərli tövsiyələrini layiqincə yerinə yetirməyə çalışırıq. Gənc və yeniyetmələrlə işləyən bir dövlət qurumu olaraq bu tələb çoxşaxəli fəaliyyətimizdə hər zaman qırmızı xətt kimi keçir. Bu ilin arxada qalan aylarında keçirdiyimiz mədəni-kütləvi tədbirlərin əsas qayəsi sabahın qurucuları olan gənclərin fəal vətəndaş kimi formalaşmasına nail olmaqdır. Bu baxımdan "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı bu il fevralın 1-də keçirilən gənclərin ümumrayon toplantısı daha çox yaddaqalandır. Tədbirdə ulu öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi qayğı və diqqətdən, bu isti münasibətin respublika Prezidenti İlham Əliyev tərəfindən daha dolğun şəkildə davam etdirilməsindən ətraflı danışıldı, gənclərə vətənə, xalqa, dövlətə sədaqətli xidmətdə uğurlar arzuladılar. Tədbir iştirakçıları dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə tikilib istifadəyə verilən Ağcabədi Olimpiya İdman Kompleksinin rayonda idmanın inkişafına böyük töhfələr verəcəyini minnətdarlıqla vurğulamışlar. Tədbirin sonunda beynəlxalq yarışlarda uğurlu nəticələr əldə etmiş bir qrup idmançıya Ağcabədi Rayon İcra Hakimiyyətinin, Gənclər və idman idarəsinin fəxri fərman və diplomları təqdim olunmuşdur.

Biz gənclər dövlətin qayğısını daim hiss edir, bundan böyük məmnunluq duyur və daha böyük nailiyyətlər qazanmağa ruhlanırıq. Bu ilin yanvarında Prezident İlham Əliyevin sərəncamı ilə "2 fevral Azərbaycan Gənclər Günü" münasibətilə və dövlət gənclər siyasətinin həyata keçirilməsində, gənclər hərəkatının formalaşmasında səmərəli fəaliyyətimə görə, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşam. Əlbəttə, bu bütün Ağcabədi gənclərinin əməyinə verilən yüksək dəyər kimi qiymətləndirilməlidir. Bu gün Ağcabədi gəncləri təhsil müəssisələrində, ayrı-ayrı xidmət sahələrində, müxtəlif təsərrüfat işlərində səmərəli fəaliyyətləri ilə diqqət çəkir, nümunə göstərirlər.

Təbii ki, uğurlarımız kifayət qədər çox olsa da, arxayınlaşmır, daim yeni zirvələrə can atırıq. Yenə qayğılı günlərimizdir. Mayın 16-da "Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda rayonumuzda keçiriləcək konfransa ciddi hazırlaşırıq. Ağcabədili gənclər bu tədbirdə yüksək siyasi fəallıq və mütəşəkkil iştiraklarıyla Heydər Əliyev ideallarına yenilməz sədaqətini bir daha nümayiş etdirəcəklər.

*Rüfət QULİYEV, Ağcabədi Rayon Gənclər və İdman İdarəsinin rəisi*

**Dünya olduğu kimi**

# Qanq, sənin suların niyə bulanıqdır?

*...Bura onlar üçün adi su axını deyil. Cənnətdən yerə enən çeşmədir...*

*Günahlarını yumaq, paklanmaq, qüsl etmək üçün ziyarətgahdır...*

*Ölülərin ruhunu günahlardan təmizləyəcək səcdəgahdır...*

*Bu dünyanı tərk etmiş bədənin ruhunu o dünyanın cənnətinə aparacaq yoldur...*

*Qısası, hindular üçün müqəddəs yerdir.*

*Bizlər üçünsə dünyanın adi çaylarından biridir - Qanq çayıdır...*



## Çaya atılan meyitlər

Amazon və Konqodan sonra dünyanın üçüncü bol sulu çayı olan Qanq Cənubi Asiyadan axır. Çay öz başlanğıcını Himalay dağlarının buzlaqlarından götürərək, Hindistan və Banqladeş ərazisindən keçir və Hind okeanında Benqal körfəzinə tökülür. Elə ən böyük deltanı da Qanq çayı əmələ gətirir. Onun sahəsi 105640 $km^2$ təşkil edir.

Hinduizm mifologiyasında Qanq cənnətdən yerə enən çay adlanır. Onların etiqadına görə, bu çay Şiva, Rama, Krişna, yaxud hər hansı hindu məbudlarından birinin zühur və təcəlli yeri sayılır. Hinduların dini əfsanələrində nəql olunur ki, Qanq çayı səmada Vişnunun ayağından qaynaqlanıb, sonra Şivanın başının ortasına enib, onun saçlarından axıb və başdan-başa Hindistan torpaqlarına yayılıb. Qanq Himalay dağları arasında, hinduların ən mühüm ibadət mərkəzlərindən sayılan Hardvar adlı yerdən qaynaqlanır.

Digər əfsanəyə görə, Qanq çayı öncə səmavi olub, sonra isə hökmdar Bharatanın yalvarışlarına dözməyib, yerə enib. Ona görə də bu çay müqəddəs yer kimi ziyarət olunur.

Uzun illərdir hindular öz müqəddəs çaylarına səcdə edirlər. Onlar hesab edirlər ki, Qanq ölülərin ruhunu günahlardan təmizləyir. Odur ki, dəfn mərasimlərində öncə cəsədə xüsusi maddə sürtür, sonra isə yandırıb, külünü Qanqa tökürlər. Bəzi kasıblar isə ayinə tələb olunan maddəni ala bilmədikləri üçün doğmalarının nəşini yandırmadan birbaşa Qanqa atırlar.

## Hinduların ölməyə gəldiyi şəhər

Qanq çayının sahilində yerləşən Benares şəhəri hindusların müqəddəs məkanlarındandır. Hər il saysız-hesabsız ziyarətçi Qanq çayında qüsl etmək məqsədilə Hindistanın hər yerindən ora tələsir. Hindular inanırlar ki, bu məkanda qüsl etmək onları bütün günahlardan təmizləyir. Ona görə də çayın sahilində zəvvarların qüsl verməsi üçün "qat" adlanan çoxsaylı yerlər inşa olunub. Qatların bir çoxu yuyunmaq, qalanları isə meyiti yandırmaq üçün istifadə edilir.

Hindular ziyarət mövsümündə Qanq çayının sahilində vəfat edənlərə, xüsusilə də ölüm anında ayaqları suda olanlara daha çox səadət və xoşbəxtlik nəsib olduğuna inanırlar. Onların etiqadına görə, belə bir şəxsin ruhu asimana gedir və Şivanın qonşuluğunda əbədi şadlıqda həyat sürür. Ona görə də bəzən çayda ölənləri dəfn etmirlər. Meyitlər elə suda qalır, onları qurd-quş yeyir.

Qanq çayı hinduların müqəddəs şəhəri Varanasidən də keçir. "Hinduların ölməyə gəldiyi şəhər" kimi də tanınan bu yerə hər il minlərlə hindu ölümünü gözləmək üçün gəlir. Onlar qatlarda - beton pillələrdə yuyunaraq, günahlarından təmizlənmək, ya da itirdikləri yaxınlarının bədənlərini çayın sahilində yandırmaq üçün bu şəhərə axın edirlər.

Yüz milyonlarla insan bu çayda çiməndə pak olduğunu, günahlarının yuyulduğunu düşünür. Mömin, xəstə və ehtiyacı olanlar burada öz diləklərini edir, xəstəlikdən şəfa tapmaları və günahlardan təmizlənmələri üçün çayın suyu ilə yuyunurlar. Elə bu məqsədlə çayın hər iki sahilində yüzlərlə hamam tikilib. Çayı müqəddəs hesab edən və onun sahilində yoqa ilə məşğul olan, ibadət edən, mənəvi rahatlıq tapan insanlar isə həyatlarını bu su hövzəsi olmadan təsəvvür edə bilmirlər.

Qanq çayı boyunca hər addımda aclıqdan, səfalətdən, xəstəlikdən ölənlərə də rast gəlmək olar. Ölüm-yaşam mərhələsindən çıxaraq, cənnətə çatacaqlarına inanaraq ölümü gözləmək üçün bura gələn kimsəsiz yaşlıları da görmək mümkündür. Bundan başqa, hindular doğuş zamanı ölən ana və körpələrin cəsədlərini də Qanqa atırlar.

Bunlarla yanaşı, çaya 450 milyon əhaliyə xidmət edən kanalizasiya sistemindən hər gün 4800 milyon litr çirkab su axıdılır. Buraya fabrik və zavodların sənaye tullantıları və yarım milyon tondan artıq plastik kütlə atılır. Əhalinin kasıb təbəqəsi isə bu suda paltarlarını yumaqdan və çimməkdən çəkinmir. Bütün bunlar isə milyonlarla insanın nəinki inanc, həm də içməli su mənbəyi olan Qanq çayının çirklənməsi deməkdir.

## Çaya "axıdılan" 3 milyard dollar

Milyonlarla insan üçün su mənbəyi, 1 milyard nəfərin ibadət yeri olan "Ana Qanq" hindular üçün nə qədər müqəddəs sayılsa da, onların inanclarından doğan antigigiyenik davranışların minlərlə yoluxucu xəstəliyin yaranmasına və çayın günbəgün məhvinə səbəb olduğunu Hindistan hökuməti də bilir. Odur ki, ciddi risk və təhlükə mənbəyi olan Qanq çayının təmizlənməsi üçün Hindistan hökuməti tərəfindən 3 milyard dollar vəsait ayrılıb. Çayın yaxınlığında yerləşən fabrik və zavodların fəaliyyəti də dayandırılıb. İşin icrası məqsədilə bir neçə dəfə Qanqı təmizləmək üçün tədbirlər görülüb. Lakin bunlar heç bir nəticə verməyib. İnsanlar bir həftə sonra öz çirkin əməllərini davam etdiriblər. Nəticədə 3 milyard dollar boşuna çaya "axıdılıb". Və beləliklə, Qanqın suları hələ də bulanmaqda davam edir...

Mütəxəssislərin fikrincə, bu durum davam edərsə, 2030-cu ilə qədər çayın üçdəiki hissəsi quruya bilər. Əsas təhlükə mənbəyi isə Qanqın Himalay dağlarından başlanan qollarında suyun daim azalmasıdır. Çayın dayazlaşmasının sürəti barədə proqnozlar düz çıxsa, Qanq çayının sahillərində yaşayan milyonlarla insan 20 ildən sonra içməli sudan məhrum olacaq.

Lakin çayın təmizlənməsinin mümkün olduğuna ümid yaradan məqam var: Qanqın canlı aləmi. Çayın illərdir bu qədər çirklənməsinə baxmayaraq, orada hələ də nadir Qanq delfinlərini görmək mümkündür. Ona görə də coğrafiyaçı mütəxəssislər ümid edirlər ki, Qanq yenə öz sularını təmizləyib, sözün əsl mənasında saflıq rəmzinə çevriləcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Bilirsinizmi...



- Günəş enerjisinin 19 faizi atmosferdə udulur, 47 faizi Yerə düşür, 34 faizi isə kosmosa qayıdır. Tam Günəş tutulması 7,5 dəqiqədən çox çəkmir; tam Ay tutulması isə 104 dəqiqə davam edir.
- Yer üzündəki qadınların təxminən 2 faizinin gözlərində nadir genetik mutasiya var. Həmin mutasiya onlara 100 mln. rəngi ayırd etməyə imkan verir.
- Pluton planetində bir ilin uzunluğu Yerdəki 247,7 il qədərdir.
- İlk coğrafi atlas m.ə.150-ci ildə alim Ptolomey tərəfindən yaradılıb, 1477-ci ildə Boloniya şəhərində çap edilib.
- Tüdorun hakimiyyəti dövründə İngiltərədə sıx bağlanmış korset və biləkdə çoxlu qolbaqlar bakirəlik əlaməti hesab olunurdu.
- İnsan beyni bir gündə dünyadakı bütün telefonlardan daha çox elektrik impuls edir.
- Alimlərin fikrincə, insan məktəbi bitirdikdən 22 il sonra sinif yoldaşlarının, demək olar ki, hamısının adını və simasını yaddan çıxarır.
- Roma ordusunda hər çadırda 10 əsgər qalırdı. Hər çadırın öz başçısı seçilir və "dekan" adlanırdı.
- Taylandın milli himni 1902-ci ildə rus bəstəkarı Pyotr Şurovski tərəfindən yazılıb.
- Bütün ölkələrin əsgərləri sağ əllə salam verir.
- Qəhvəyi rəngində göz əslində mövcud deyil. Qəhvəyi gözlər mavi gözlərdəki qəhvəyi piqment vasitəsilə həmin rəngi alır. Gözlərdəki qəhvəyi piqmenti əməliyyat vasitəsilə götürüb həmişəlik mavi gözlərə sahib olmaq olar.

# Süni ətlər qida sektoruna "ayaq açır"

**Kanadada laboratoriya şəraitində istehsal edilən ətlər tezliklə qida sektorunda istifadə ediləcək.**



Kanada rəsmi xəbər agentliyi olan "Canadian-Press"in xəbərinə görə, ölkədəki bəzi şirkətlər yaxın illərdə laboratoriyada heç bir heyvan kəsmədən toyuq, inək və qoyun əti istehsalına başlayacaq. İstehsal edilən ətlər həm insan, həm də it-pişik qidaları kimi istifadə edilə bilər.

"Future Fields" şirkətinin təsisçisi Lejji Gafour mətbuata açıqlamasında bildirib ki, hazırda toyuq ətinin laboratoriya şəraitində istehsalı üzərində çalışırlar. Yaxın 5-7 il ərzində bu toyuqlar ictimai istehlaka hazır olacaq.

"Appleton Meats" şirkəti isə laboratoiyada istehsal etdikləri mal ətindən hazırlanan burgerləri bazara çıxarmağa çalışır. Şirkətin icraçı direktoru Sid Deen 2017-ci ilin sonunda bu işə başladıqlarını və 3-5 il ərzində burgerləri satışa çıxara biləcəklərini söyləyib.

Torontoda yerləşən "Because Animals" adlı başqa bir şirkət də eyni üsulla laboratoriyada tarla siçanı hüceyrələrindən istehsal etdikləri ətlə pişik qidası hazırlayıb. Şirkətin rəhbəri Şannon Falconer bildirib ki, hazırda məhsulun mağaza rəflərində yerləşdirilməsi üçün lazım olan qanuni işlər həyata keçirilir.

Qeyd edək ki, laboratoriya şəraitində ilk ət istehsalını keçən il "Aleph Farms" adlı İsrail şirkəti həyata keçirib.

# Təbiətin dostları: uça bilməyən quş

**Yaxından görməsək də, hər birimiz bu heyvanı çox sevirik. Dünyanın ən sevimli, qəribə, bəzən də gülməli görünən və uça bilməyən quşlarını gəlin daha yaxından tanıyaq.**



Pinqvinlərin əcdadları hələ Antarktida tam olaraq buz parçasına çevrilməyən zamanlar o ərazidə yaşayıb. Antarktida Cənub qütbünə hərəkət edərək tamamilə buzla örtülməyə başlayanda orada yaşayan heyvanlar ya ərazini tərk edib, ya da soyuqdan məhv olublar. Amma pinqvinlər yaşayış yerlərini tərk etməyərək, yeni yaranmış iqlimə uyğunlaşıblar. 60 milyon il bundan əvvəl planetimizdə yaşayan pinqvinlərin 40-a qədər növü isə məhv olub. Hazırda Cənub qütbü, Yeni Zelandiya, Avstraliyanın cənubu, Cənubi Amerikanın sahil sularında, Folkner adalarından Peruya qədər, Cənubi Afrika və hətta Qalapaqos adalarının ekvatora yaxın sahillərində yaşayırlar.

Təxminən 17 növü bilinən pinqvinlərin ölçüləri 30-105 sm olur. Ən iri növü hesab edilən İmperator pinqvinlərinin kilosu 45 kq, hündürlüyü isə 110-120 sm-ə çatır.

Quyruqları qısadır, ayaqları bədənlərinin arxasında olduğundan rahatlıqla ayaq üstə dayana bilirlər. Qanadları uçmağa yaramır. Amma uçmağa yaramayan əzələli və güclü qanadlar üzərkən çox qüvvətli üzgəc vəzifəsini görməklə yanaşı, buz üzərində sıçrayan və sinələrinin üzərinə yataraq çox yaxşı sürüşən pinqvinlərə "xizək kimi" kömək edir. Bu üsulla pinqvinlər qaçaraq qurudan bir neçə yüz kilometr suyun içərisinə qədər girə bilirlər.

Pinqvinlər unikal heyvanlardır. Belə ki, Cənub qütbü pinqvinləri 40°C-lik bədən istiliyi ilə -40°C-lik Antarktida soyuğuna uyğunlaşma qabiliyyətinə malikdirlər. 80-88°C-lik istilik fərqinə bədənlərindəki tük, yağ və qidalardan əldə etdikləri enerji hesabına tab gətirə bilirlər. Dərisinin altında toplanan 2-3 sm qalınlığındakı piy qatı və iki qatdan ibarət su keçirməyən, bir-birinə sıx yerləşmiş, bütün bədəni tamamilə örtən tük qatı onu soyuqdan qoruyur. Bununla yanaşı, tüklərin arasında qalan hava qatı da suya daxil olarkən temperaturu özündə saxlayır və istiliyin itməsinə imkan vermir. Pinqvinlərin ayaqlarında bədən istiliklərini nizamlayan avtomatik mexanizm mövcuddur. Ayaqlara gələn isti arterial qan öz istiliyini nisbətən soyuq olan venoz qana verir və yenidən geri, bədənə qayıdır. Geridönüm (axım) prinsipi adlanan bu proseslə bədəndəki istilik tənzimlənir. Nəticədə pinqvinlərin ayaqları buzun üstündə donmur.

25 il ömrü olan bu quşlar birlikdə isinir, birlikdə yaşayırlar. Tək-tək yumurtlamağı və bala çıxarmağı sevmirlər. Adətən onlar bunu bir yerdə on minlərlə cütlüyün toplandığı koloniyalarda edirlər. Yumurta qoymaq və balaları yemləməkdə hər iki cütlük iştirak edir. Balalarını üyütdükləri balıq və balaca heyvan qırıqları ilə yemləyirlər. Böyük dəstə ilə bir yerə yığışanda belə hər pinqvin öz balasını tanıya bilir.

Antarktidada vertolyot uçuşları qadağandır. Buna səbəb pinqvinlərin boyunlarının qısa olmasıdır. Çünki səsi eşidib yuxarı baxmaq istədikləri zaman hamısı domino şəklində yerə yıxılır.



**Sağlıq olsun**

# Baş bəlası - miqren

**Həkim məsləhəti**

**Son zamanlar insanların ən çox şikayət etdikləri xəstəliklərdən biri də şiddətli başağrıları ilə müşayiət edilən miqrendır. Xəstəlik barədə həkim-nevropatoloq Fərhad Əhmədov bildirib ki, miqren irsi nevroloji xəstəlikdir.**



Xəstəliyin şiddəti tutmaların tezliyi və intensivliyi ilə müəyyən edilir. Yüngül formalı miqrendə tutmalar ildə bir neçə dəfə, ağır formalarda gündəlik baş verir. Lakin miqren tutmalarının ayda 2-dən 8 dəfəyədək baş verməsi xəstəliyin ən geniş yayılmış forması hesab olunur. Miqrenə səbəb olan bir çox təhrikedici amillər var. Qidanın tərkibində olan bəzi maddələr və ya qidalanma rejiminin özü miqrenoz tutmaların yaranmasına səbəb ola bilər.

Həmçinin ətraf mühit, yuxu rejimi, dərman qəbulu, psixofizioloji və s. amillər də miqren yaradan səbəblər arasındadır.

Qadınlarda ayda orta hesabla 7, kişilərdə isə 6 tutma baş verir. Qadınlarda tutmanın orta davametmə müddəti 7,5 saat, kişilərdə isə 6,5 saatdır. Qadınlarda tutmanın səbəbləri daha çox atmosfer təzyiqinin, havanın temperaturunun dəyişməsi və digər iqlim dəyişiklikləridirsə, kişilərdə gərgin fiziki iş fəaliyyətidir. Miqreni müşayiət edən simptomlar da ayırd edilir: bu, kişilərdə daha çox fotofobiya və depressiya, qadınlarda isə tez-tez ürəkbulanma halları və qoxubilmənin pozulmasıdır.

## 2-3 gün sürən ağrılar

Miqren tutmalarının olacağından xəbər verən əlamətlər isə zəiflik, səbəbsiz yorğunluq hissi, konsentrasiyanın zəifləməsi, diqqətin pozulması şəklində özünü göstərir. Tutmalardan sonra bəzən yuxusuzluq, zəiflik, dəri örtüyünün solğunlaşması müşahidə olunur. Miqrenoz başağrısının xarakteri digər mənşəli başağrılarından fərqlənir - gicgahlardan başlayan sıxıcı ağrı tədricən başın yarısını əhatə edərək, alın və göz nahiyələrinə yayılır. Miqren zamanı həmişə bir və ya bir neçə müşayiətedici simptom - fotofobiya, ürəkbulanma, qusma, səsdən qıcıqlanma, iybilmənin, görmə və diqqətin zəifləməsi müşahidə olunur. Qadınlarda rast gəlinən miqren xəstəliyinin 10%-də tutmalar menstruasiya zamanı baş verir və başlandıqdan sonra bir və ya iki gün davam edir. Adətən uşaqlarda miqren zamanı yanaşı simptom kimi yuxululuq qeyd edilir və tutmalar yuxudan sonra keçib gedir. Kişilərdə miqren ağır iş gördükdən sonra inkişaf edir. Hərəkət və ya gəzinti zamanı, ağır yük qaldırdıqda, nərdivana qalxanda ağrı artır. Gicgah nahiyəsində arteriyalar gərgin olur, ağrı və gərginlik hərəkət zamanı artır. Bu səbəbdən xəstələr tutma mərhələsini yataq şəraitində, sakit və qaranlıq bir yerdə keçirirlər ki, xarici qıcıqların sayını minimuma endirsinlər. Ürəkbulanma miqrenoz başağrılarını digər mənşəli başağrılarından fərqləndirməyə kömək edən mühüm simptomdur. Bu əlamət həmişə tutmaları müşayiət edir və bəzən o qədər güclü ifadə olunur ki, qusmaya gətirib çıxarır.

Miqren ağrısı bir neçə saatdan 2-3 günədək davam edə bilər. Ağrının intensivliyini azaltmaq və xəstənin vəziyyətini yüngülləşdirmək üçün ona üfüqi vəziyyətdə qalmaq, hərəkətliliyini maksimal dərəcədə məhdudlaşdırmaq, başı soyuq dəsmalla bürümək, işıqdan və gur səsdən qorunmaq lazımdır.

## Profilaktika

Nevroloq məlumat verir ki, alkoqol və nikotinin damar sisteminə olan dağıdıcı təsiri miqren tutmasının yaranmasına və ağrı intensivliyinin artmasına səbəb olur. Buna görə də energetik içkilər, qəhvə və tərkibində böyük miqdarda kofein olan digər məhsullar qida rasionundan kənarlaşdırılmalıdır. Orqanizmin istirahət və bərpası prosesinin daha da intensiv keçməsi üçün yuxu rejiminə ciddi nəzarət edilməlidir. Ən mühüm dövr 20:00-dan gecə yarısına qədərdir, bu vaxt yuxuda keçirilməlidir. "Fast food", hisə verilmiş qidalar, konservantlar, aromatizatorlar və dad əlavələri qatılmış ərzaqlar qida rasionundan çıxarılmalıdır. Onların istifadəsi ürək-damar sistemi xəstəliklərinin yaranmasına səbəb olur, həm də miqrenoz tutmaya gətirib çıxara bilir. Yüngül fiziki fəaliyyət, açıq havada gəzintilər orqanizmi məşq etdirir, onu stresə qarşı daha dözümlü edir və tutmanın yaranma ehtimalını azaldır. Zehni fəaliyyətin intensivliyini tənzimləyib, bədəni həddən artıq yükləməmək, emosional gərginliyin və sinir böhranlarının yaranmasına imkan verməmək lazımdır ki, tutmaların əmələgəlmə ehtimalı minimuma ensin.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bilirik?

- İnsan sevdiyi və ya nifrət etdiyi bir şeyə baxarkən göz bəbəyi böyüməyə başlayır;
- Güclü işıqdan görmə qabiliyyətini itirmək xəstəliyinə "qar korlaşması" deyirlər;
- İnsan bədənində yaşayan bütün bakteriyaların ümumi çəkisi 2 kq-dır;
- İnsan beynində 1 saniyədə 100 000 kimyəvi reaksiya gedir;
- Körpələr doğulanda onlarda diz qapağı olmur. Diz qapaqları 2-6 yaşlarında əmələ gəlir;
- Beyin tərəfindən göndərilən siqnallar saatda 274 km sürətlə çatdırılır;
- Tək bir saç teli bir alma daşıya biləcək qədər güclüdür;
- Dünyada sadəcə 4 müxtəlif qan qrupu yoxdur. Ümumilikdə 29-dur. Bunların ən nadirləri Yaponiyadakı kiçik ailələr qrupu arasında geniş yayılmışdır;
- Qida ağız boşluğundan mədəyə cəmi 7 saniyəyə gedib çatır.

**Şəfalı bitkilər**



## Xərçənglə savaşır, infarkt riskini azaldır

**Çiyələk rəngi və qoxusu ilə yay mövsümünün ən sevimli meyvəsidir. C vitamini deposu olan çiyələyin faydalarını saymaqla bitmir. Xərçəngə qarşı mübarizə aparan antosiyan, ellagik asit, kaempferol, kuersetin kimi antioksidantlarla zəngindir.**

İnfarkt riskini 30% azaldır və ürək sağlamlığını qoruyur. "Pis" xolesterolun səviyyəsini aşağı salır, damar sağlamlığını qoruyur. Göz sağlamlığına fayda verir, su və lif tərkibi yüksək, kalori səviyyəsi aşağıdır. Arıqlamaq istəyənlər pəhrizlərinə daxil edə bilərlər. Çiyələk həzm sisteminə müsbət təsir edir, qəbizlik problemini həll edir. Uşaqlarda iflic və ağız-dəri yaralarına yol açan virusları öldürür.

Qanı təmizləyir, qan şəkərini nizama salır, şəkər xəstəliyi riskini azaldır. Potasium və antioksidantla zəngin olan bu meyvə qan təzyiqini tənzimləyir. Qaraciyər xəstəliklərinə fayda verir.

Qarnında su toplanan, böyrəyində qum, ya daş olanlar, damar sərtliyi, yüksək təzyiq problemi olanlar çiyələk və yarpağından dəmlənmiş çaydan içə bilərlər.

300 qram çiyələk yarpağını və kökünü 1 gecə suda saxlayın. Ertəsi gün 1 litr suda 20 dəqiqə qaynadın və çay kimi için.

**Tibbi kəşflər**



## Ürək əməliyyatlarını robot-cərrahlar həyata keçirəcək

**ABŞ-da Boston Uşaq Klinikasının əməkdaşları bədəndə müstəqil olaraq cərrahiyyə əməliyyatı apara bilən, tibbi və texniki səhvləri etmə ehtimalını azaldan sistem hazırlayıblar.**

Bu barədə məlumat verən yerli media bildirib ki, alimlər artıq bu naviqasiya-katater sistemini donuzlar üzərində müvəffəqiyyətlə sınaqdan keçiriblər. Həmin sistem robot-cərrahın müstəqil ürək əməliyyatı həyata keçirməsinə imkan verib.

Bu sistem sayəsində gələcəkdə insan müdaxiləsi olmadan çoxsaylı əməliyyatları dəqiqliklə həyata keçirmək mümkün olacaq.

Qeyd olunub ki, indiyə qədər robotik cərrahiyyədən geniş istifadə olunsa da, burada yüksək dəqiqlik qeydə alınmayıb. Yeni robot-cərrah isə yüksək dəqiqliyi, hər şeyi davamlı olaraq izləməsi ilə fərqlənir.

Robot kamera və sensorlar vasitəsilə görür və hərəkət edir.

**Min bir dərdin dərmanı**

## Vitamin deposu - bal

**Bal qədimdən ən faydalı və əvəzsiz məhsullardan biri sayılır.**



Bal müxtəlif vitaminlər ($B_1$, $B_2$, $B_6$, fol turşusu, K, C, E, A provitamini), mikroelementlər (dəmir, kalium, fosfor, mis, yod, sink və s.), qlükoza, fruktoza, antioksidantlar, aminturşuları, fermentlər, enzimlərlə olduqca zəngindir. Bu səbəbdən qanazlığı zamanı bal əsl əvəzedilməz təbii dərmandır. Ümumiyyətlə, qan-damar sisteminin, demək olar, bütün xəstəlikləri zamanı baldan müalicəvi vasitə kimi geniş istifadə olunur.

Bal güclü antibakterial və iltihabəleyhinə xüsusiyyətlərlə tanınır. Bu xüsusiyyətlərə görə bal (xüsusən cökə balı) soyuqdəymə xəstəlikləri zamanı çox yaxşı müalicəvi effekt verir.

Bal insanın immunitetini gücləndirir, orqanizmin xəstəliklər və infeksiyalara qarşı davamlılığını artırır.

Qaraciyərin, böyrəklərin fəaliyyətini yaxşılaşdırır, orada olan iltihablarla mübarizə aparır. Bu qiymətli məhsul həmçinin orqanizmi cavanlaşdırır, toksinlərdən təmizləyir, xolesterinin səviyyəsini aşağı salır, stresi azaldır, yaddaşı yaxşılaşdırır.

Lakin balın yüksəs allergik xüsusiyyətlərinə görə onu 3 yaşından kiçik olan uşaqlar və allergik xəstəlikləri olan böyüklər qəbul etməməlidir.

Öz antiseptik və yara sağaldan xüsusiyyətlərinə görə bal mədədə və bağırsaqlarda olan kiçik xoraları sağaldır, ziyanlı mikrobların sayını xeyli azaldır. Bu səbəbdən bal mədə və 12 barmaq bağırsaq xorası, xroniki qastrit, enterit, kolit və s. xəstəliklərin müalicəsi zamanı əvəzsiz vasitədir. Lakin onu da nəzərinizə çatdıraq ki, lazım olan müalicəvi effekti almaq üçün balı uzun müddət ərzində hər gün ılıq suda həll olunmuş şəkildə qəbul etmək lazımdır.

**Sağlam qida**

# Balıq ölüm riskini azaldır

**Balıq süfrələrimizin ləzzətli qidası olmaqla bərabər, həm də şəfa mənbəyidir. Harvard Universiteti mütəxəssislərinin balığın sağlamlığa təsirləri haqqında apardıqları tədqiqatlar bu qidanın insan bədəninə faydalarını ortaya çıxarıb.**



Son 20 ildə bu mövzuda aparılan tədqiqatlar sayəsində mütəxəssislər balığın faydaları ilə yanaşı, zərərinin də çox az olduğu qənaətinə gəliblər. Araşdırmalar balıq yeməyinin ürək xəstəliklərində ölüm riskini 36% azaltdığını ortaya qoyur. Yağlı balığın tərkibində daha çox Omeqa-3 olması səbəbi ilə daha faydalı olduğu tədqiqatlardan çıxan bir başqa nəticədir. Mütəxəssislər sağlam bir həyat üçün həftədə 2 dəfə balıq yeyilməsini məsləhət görürlər. Bununla yanaşı, balığın insan orqanizminə aşağıdakı faydaları da var:

Qandakı xolesterolu nizamlayaraq ürək tutmalarının qarşısını alır;

Nişasta və yağların parçalanaraq bədəndə istifadəsinə kömək edir;

Oynaq sağlamlığına faydalıdır;

Şəkər xəstəliyinin müalicəsində istifadə edilir;

Depressiya və şizofreniya əlamətlərini yüngülləşdirir;

Miqren xəstələrində faydası təsdiqlənib;

Qlaukomanın (göz təzyiqinin artması səbəbilə meydana gələn korluq) müalicəsində faydası var;

Zülal, D vitamini və mikroelementlər baxımından mükəmməl qida qaynağıdır;

Tərkibindəki fosfor, kükürd, vanadium kimi minerallar sayəsində böyüməyi və toxumaların yaxşılaşmasını təmin edir;

Sağlam diş və diş ətinə faydalıdır;

Bakterial infeksiyalara qarşı müqaviməti artırır.





# Kəlağayı sehrinə və Qarabağ atlarına fantastik vurğunluq

## Milli mədəniyyət incilərimiz britaniyalıların qəlbini fəth edir

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kral ailəsinin üzvlərinin şərəfinə ənənəvi olaraq təşkil edilən "Vindzor Kral Atçılıq Şousu" 2019-cu il 9 may tarixdə start götürmüşdür.





2014-cü ildən etibarən ölkəmizin dəvət aldığı bu beynəlxalq atçılıq şousu qədim və unikal mədəniyyətimizin tanıdılması üçün son dərəcə əhəmiyyətli platformaya çevrilmiş, nümayəndə heyətimizin hər il nümayiş etdirdiyi bənzərsiz şou-proqramlar və performanslar bu möhtəşəm tədbirin ayrılmaz hissəsi kimi qəbul edilmişdir.

Milli sərvətimiz olan Qarabağ atlarının qorunub saxlanılmasına və məşhurlaşdırılmasına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali dəstəyi sayəsində son illər ərzində milli at cinslərinin Azərbaycan brendi kimi dünyada tanıdılması istiqamətində önəmli işlər görülür. Bu tədbirlər sırasında "Vindzor Kral Atçılıq Şousu"nda Qarabağ atlarının füsunkar gözəlliyinin nümayiş etdirilməsi xüsusi yer tutur.

Cari ildəki "Vindzor Kral Atçılıq Şousu"nda ölkəmizi növbəti dəfə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsi və rəqs ansamblı təmsil etmiş, artıq ənənəvi olaraq öz çıxışları ilə hər kəsi valeh etməyi, hər bir tamaşaçını heyrətləndirməyi bacarmışlar.

Oman Sultanlığını, Birləşmiş Ərəb Əmirliklərini, Macarıstanı və Böyük Britaniyanı təmsil edən digər atçılıq şousu iştirakçıları fonunda təmsilçilərimizin milli geyimdə çıxışları xüsusilə fərqlənmiş, çoxsaylı tamaşaçı kütləsinin rəğbətini qazanmışdır.

2019-cu ildə Birləşmiş Krallığın ən qüdrətli taxt-tac sahibi kimi tarixə düşmüş Kraliça Viktoriyanın xatirəsinə həsr olunmuş bu tədbir üçün nümayəndə heyətimiz tərəfindən xüsusi olaraq "Azərbaycanın kəlağayısı və Qarabağ atları" adlı şou-kompozisiya hazırlanmışdır. Azərbaycan xalqının çoxsaylı maddi və mənəvi sərvətlərindən ikisinin vəhdətindən formalaşan bu kompozisiyanın əsasını artıq Vindzor tamaşaçılarına çox yaxşı tanış olan, burada özünə heyranlar ordusu qazanmış, çılğınlığı və gözəlliyi ilə seçilən Qarabağ atları, eləcə də Azərbaycan qadınlarının ənənəvi baş örtüyü, ismət və gözəllik rəmzi olan kəlağayı təşkil etmişdir.

Şou aparıcısının təmsilçilərimizin möhtəşəm çıxışını öncələyən təqdimatında kompozisiyanın əsas elementlərindən birini təşkil edən 1500 ildən çox tarixə malik Azərbaycan kəlağayısının hələ iki əsr öncə - 1851-ci ildə Londonda keçirilmiş böyük sərgidə Kraliça Viktoriyaya hədiyyə edilməsinin vurğulanması böyük maraqla qarşılanmışdır.

Milli musiqi alətlərimizdə - balabanda, tütəkdə, zurnada, tarda, kamançada, nağarada ifa olunan, xalqımızın kod yaddaşının daşıyıcıları - milli rəqsimiz yallının, gənc muğam ustası Mirələm Mirələmovun ifasında "Ay Laçın" xalq mahnısının və Emin Sabitoğlunun bəstələdiyi "İncəbellim" musiqisinin ecazkar sədalarından, "Sərhədçi" rəqs ansamblının hərarətli və çılğın rəqslərindən, Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində igidlik və hünər nümunələrindən, alov püskürənlərin qeyri-adi performanslarından ibarət şou-kompozisiya Böyük Britaniya tamaşaçılarını, sözün əsl mənasında, ovsunlamışdır.

Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış şou-kompozisiyanın quruluşçu rejissoru - Azərbaycan Respublikasının əməkdar artisti Nicat Kazımov, xoreoqrafı Azərbaycan Respublikasının əməkdar artisti Nailə Məmmədzadə, süvarilər dəstəsinin rəhbəri Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi Azər Həmzəyev, Alov şou qrupunun rəhbəri isə Rasim İskəndərlidir.

7 dəqiqə davam edən şou müddətində süvarilərimizin başları üzərində Azərbaycan Respublikasının və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırmaları, rəqqaslarımızın ifasında qılıncoynatma səhnələri, kəlağayımızın xalqımızın sülhsevərlik simvollarından biri olmasının - döyüş meydanında Azərbaycan qadını tərəfindən kəlağayının yerə atılması ilə savaşa son qoyulması adətinin nümayiş etdirilməsi, meydandakı reklam lövhələrinin üçrəngli bayrağımızın rənglərinə boyanması diqqəti xüsusi cəlb etmişdir.

Şou-proqram tədbir iştirakçıları tərəfindən böyük coşqu ilə qarşılanmış, əksəriyyəti Britaniya aristokratiyasından ibarət olan böyük tamaşaçı kütləsinin zövqünü oxşamış, tamaşaçılar ayağa qalxaraq təmsilçilərimizi sürəkli alqışlarla yola salmışlar.

***"Azərbaycan"***

# Rusiya erməni faşizmini ifşa etdi

***Əvvəli 1-ci səh.***

## "Yeni Ermənistan" yaratmaq xülyası

Rusiya Xarici İşlər Nazirliyi 2018-ci ildə Ermənistanda partiya kimi qeydiyyata alınan "Sasna Srer" təşkilatının planlarını ifşa edib. Rəsmi Moskva "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın müasir formalarının və onlarla bağlı dözümsüzlüyün yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzəsini açıqlayıb.

Bildirilir ki, məruzə dünyanın bir sıra ölkələrində müşahidə olunan nasizm, neonasizm, ksenofobiya və onlarla bağlı dözümsüzlük hallarının artmasına beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək istiqamətində Rusiya XİN-in səylərinin davamıdır.

Qeyd olunur ki, Ermənistanın keçmiş hakim Respublika Partiyası barəsində Üçüncü Reyx ilə əməkdaşlıq haqqında informasiya olan Qaregin Njde kimi millətçi cərəyana məxsus qaragüruhçu "siyasətçi"nin xatirəsinin əbədiləşdirilməsi istiqamətində addımlar atıb.

Sənəddə Ermənistanın millətçi cərəyana məxsus siyasi təşkilatları arasında 2018-ci ilin payızında siyasi partiya kimi qeydiyyata alınmış terrorçu qruplaşma fərqləndirilir.

Vurğulanır ki, hakimiyyəti güc yolu ilə devirməyə cəhd etmiş partiyanın ideologiyasının əsasını Ermənistan Respublikasını "cinayətkar Rusiya-Türkiyə sözləşməsinin törəməsi" (1921-ci ilin Moskva müqaviləsi) kimi tanımaqdan imtina etmək və "yeni dövlət yaratmaq" uğrunda mübarizə aparmaq təşkil edir. Məruzədə deyilir: "Partiyanın açıqlanmış məqsədləri Ermənistanın həm indiki ərazisinin, həm də Dağlıq Qarabağın daxil olduğu "yeni Ermənistan yaratmaq", habelə xarici ölkələrdə yaşayan erməniləri ümummilli referendum vasitəsilə birləşdirməkdir". Bundan əlavə, partiyanın proqram göstərişlərində guya "Rusiya müstəmləkəçiliyi tərəfindən tapdalanmış" hüquqların bərpa olunması, "Naxçıvanda və Axuryan çayının qərbində Ermənistan hakimiyyətinin səlahiyyətinin bərqərar edilməsi" vəzifəsi xüsusi vurğulanır.

## Puç olan ümidlər

Ümumiyyətlə, işğalçı ölkədə siyasi müstəvidə zorakılıq hallarının artması da ciddi təhdid mənbəyi kimi qeyd olunur. Bu hal xüsusən də 2016-cı il iyulun 17-də Yerevanda Post-Patrul Xidmətinin binasına silahlı hücum edərək girovlar götürmüş "Sasna Tsrer" qruplaşması ilə bağlı özünü qabarıq göstərir. Həmin vaxt "Sasna Tsrer" qruplaşması Serj Sarkisyanı hakimiyyətdən getməyə məcbur etmək üçün silahlı qiyam qaldırmış və post-patrul xidmətinin binasına hücum edərək 6 nəfəri girov götürmüşdü. Ermənistanda məlum hakimiyyət dəyişikliyindən sonra isə "Sasna Tsrer" terror təşkilatının "xaç atası", o cümlədən qruplaşmanın mənəvi lideri Jirayr Səfilyan həbsdən azad edilmişdi.

Səfilyanla yanaşı, təşkilatın digər üzvləri olan Gevorq Safaryan, Nerses Poğosyan, Qalust Qrigoryan, Hrayr Topçyan, Sasunik Kirakosyan, Ovhannes Petrosyan da azadlığa buraxıldılar.

Son hadisələr isə "Sasna Tsrer" terrorçularının artıq hərbi xunta ilə birləşərək Paşinyanın özü üçün də ciddi problemə çevrildiyini göstərir. Bu xüsusda Ermənistanın "1-in.am" portalında olduqca maraqlı bir yazı dərc edilib.

Qeyd olunur ki, Nikol Paşinyan populizmə görə bədəl ödəyir: "Post-Patrul Xidmətinin alayını ələ keçirmiş, silahlı qrupun iki nəfər istisna olmaqla polisləri qətlə yetirməkdə ittiham olunan üzvləri inqilabın qələbəsindən sonra həbs qətimkan tədbirinin dəyişilməsi nəticəsində azadlığa çıxıblar.

Nikol Paşinyan yeni hökumətin məhkəmələrə təsir etmədiyini nə qədər iddia etsə də, aydındır ki, "Tsrer" hökumətin siyasi qərarı nəticəsində azad olunub. Hətta "zəngə görə" ədalətin yerinə inqilaba yaxın deputatların xahişi gələrkən inqilabsonrası Ermənistanda kədərli ənənə formalaşıb. "Tsrer"ə münasibətdə göstərilən humanizm hətta Nikol Paşinyanın tərəfdarlarını da parçalayıb. Əlbəttə, Jirayr Səfilyan və komandası dəfələrlə bildirib ki, özlərini inqilabın arxa cəbhəsi sayır və silahlı mübarizə səhifəsini qapanmış hesab edirlər. Amma "Sasna Tsrer"in partiya qurultayında bir sıra çıxışlar tamamilə bunun əksindən xəbər verirdi, nəticədə baş nazir parlamentə seçkilər kampaniyası vaxtı Səfilyanın komandasına qarşı sərt şəkildə durmağa məcbur oldu. Cəmiyyət hökumətdən xeyli ağıllı çıxdı: "Sasna Tsrer" parlament seçkiləri zamanı hətta iki faiz səs də yığa bilmədi, bundan sonra onun liderləri daha da radikallaşdı".

## Keçmiş deputat həbs olundu

İşğalçı ölkədə sabiq prezidentlər Robert Koçaryana və Serj Sarkisyana yaxın olan iş adamlarının tədricən sıradan çıxarılması prosesi davam etməkdədir. Buna sübut kimi Təhlükəsizlik Xidmətinin keçmiş deputat Levon Sarkisyanı həbs etməsi göstərilir. O, 2008-ci ilin oktyabrında Ermənistan Dövlət Gömrük Komitəsinin keçmiş başçısı Armen Avetsyanın malikanəsinə silahlı hücumda təqsirli bilinir.

Qeyd edək ki, "Ayaqqabı şəhəri" Açıq Səhmdar Cəmiyyətinin təsisçisi Ara Karapetyan və Yerevanın Nor-Nork rayonunun keçmiş polis rəisi Armen Nikoqosyanın yaratdığı quldur dəstəsinin 10 üzvü bu cinayətə görə 2011-ci ilin mayında 15 il müddətinədək azadlıqdan məhrum edilib. İlkin məlumata görə, basqının sifarişçisi keçmiş deputat Levon Sarkisyan olub. Cinayətdən sonra Levon Sarkisyan oğurlanan qızıl-zinət əşyalarını və bahalı saatları qarətçilərin əlindən alıb. Keçmiş deputatın malikanəsi və mənzilində keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində xeyli sayda silah-sursat, o cümlədən "AK-74" avtomatı, qumbara və qumbaraatan, 4000 müxtəlif çaplı güllə aşkarlanıb.

Xüsusi istintaq xidməti Ermənistanın böyük telekanallarından biri olan II İctimai Televiziyanın sahibi Samvel Mayrapetyanı da saxlayıb. Təfərrüatlar açıqlanmasa da ilkin məlumata görə, Samvel Mayrapetyan fırıldaqçılıqda ittiham olunur. O, Ermənistanın iri sahibkarlarından biridir. Onun avtosalonlar şəbəkəsi, tikinti şirkətləri və restoranları var. Belə ki, biznesmenin 2008-ci ildə ölkədə konstitusiya quruluşunun devrilməsində ittiham olunan sabiq prezident Robert Koçaryana yaxın adamlardan biri olduğu deyilir.

## Bank sektorunda geriləmə müşahidə olunur

Ermənistanın "Jamanak" qəzeti yazır ki, bu durumda ölkəni iqtisadi sahədə çətin günlər gözləyir: "Mərkəzi Bankın Ermənistanda makroiqtisadi vəziyyətin sabit olduğuna dair əhalini arxayın etməsinə baxmayaraq, biz yenidən milli valyutamız dramın növbəti devalvasiyasının şahidi olduq. Mənbəmiz bildirdi ki, Mərkəzi Bank hətta tələb olduğu halda belə banklara dollar almağı qadağan edərək repressiv tədbirlər vasitəsilə dramın kursunu saxlamağa çalışır. Əgər əvvəllər Mərkəzi Bank valyuta müdaxilələri yolu ilə dramın kursuna təsir edirdisə, indi xarici rezervlərin pis vəziyyətdə olması üzündən bu maliyyə instrumentinin tətbiqi imkanları xeyli məhdudlaşıb. Bütün bunlar Serj Sarkisyan hakimiyyətinin qoyduğu miraslardır".

Bununla yanaşı, qeyd edilir ki, baş nazir Nikol Paşinyanın yeni hökumət proqramını parlamentə təqdim edərkən səsləndirdiyi "bu gündən etibarən Ermənistanda iqtisadi inqilab dövrünün başlandığını elan edirik" bəyanatı ölkənin mövcud valyuta ehtiyatları və hazırkı inkişaf reallıqları ilə tərs mütənasibdir: "Çünki investisiya və bir sıra digər problemlərlə üzləşən Ermənistanda iqtisadiyyatın bütün sahələrində geriləmə, bank sektorunda ciddi valyuta çatışmazlığı və dövlət borcunun durmadan artması uzun illərdir ekspertlərin Ermənistanın müflis ölkəyə çevriləcəyi ilə bağlı verdikləri proqnozun reallaşacağı günü daha da yaxınlaşdırır".

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı kifayət qədər çətin günlər gözlədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 Plan profilaktik işlərin aparılmasında tələb olunan mail-materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı, maliyyə durumu qənaətbəxş olmalı, satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilmiş müvafiq sahədə peşəkar və təcrübəli olmalı, texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı, vergilər və digər icbari analoji hökumət ödənişləri üzrə icra vaxtı keçmiş olmamalıdır.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 150 (bir yüz əlli ) manat (ƏDV xaric) iştirak haqqını**

sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **28 iyun 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **01 iyul 2019-cu il saat 17:00-a qədər** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **02 iyul 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***


## Azərbaycanın hərbi helikopterləri "Anatolian Phoenix-2019" beynəlxalq təlimdə iştirak etmək üçün Türkiyəyə yola salınıb

Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri, texniki və uçuş heyəti mayın 13-də başlayacaq "Anatolian Phoenix-2019" beynəlxalq axtarış-xilasetmə təlimlərində iştirak etmək üçün Konya şəhərindəki aviabazaya yola salınıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 24-dək davam edəcək hərbi təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin iki "Mi-35" və iki "Mi-17" helikopterləri cəlb olunacaq.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


# Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***AZƏRTAC***

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliynin rəhbərliyi Azərbaycan Respublikasının xalq artisti, görkəmli bəstəkar, professor

**ARİF MƏLİKOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xalq artisti, görkəmli bəstəkar, professor

**ARİF MƏLİKOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova Azərbaycan Respublikasının xalq artisti, görkəmli bəstəkar, professor

**ARİF MƏLİKOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi cəmiyyətin sədr müavini Zakir Quliyevə əzizi

**ƏLİQƏMƏ QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qazax Rayon İcra Hakimiyyətinin kollektivi Rəcəb Babaşova əmisi

**VAQİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xəyyam Nəsibov və Bəxtiyar Qaraca Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova əmisi

**VAQİF BABAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9053
Sifariş 1539
Qiyməti 40 qəpik